www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6-7 oktyabr 2018-ci il Şənbə № 210 (7099) Qiymıti 60 qəpik

**Xəbər**

**İnterpolun rəhbəri Çində saxlanıldı, istintaqa cəlb edildi**

yazısı səh.2-də

**Gündəm**

**“Baş liftçi”ni baş prokurorun təqdimatı ilə işdən qovublar - sensasion təfərrüat**



Qüdrət Şükürov yüz milyonlarla dollarlıq əmlakını, bank hesablarını Ramazanovların adına keçiribmiş

yazısı səh.4-də

**Ermənistan olaylarının pərdəarxası - Qarabağ danışıqlarını nə gözləyir?**

yazısı səh.11-də

**“Müəllimlər sosial və maddi sıxıntılardan uzaq yaşamalıdır” - ekspert**

yazısı səh.3-də

**Milli Məclisdə Rusiyanın ermənipərəst deputatına qarşı sərt çıxışlar**

yazısı səh.5-də

**“Türkiyə və Almaniya arasında soyuq münasibətlər uzun çəkməyəcək” - politoloq**

yazısı səh.6-da

**10 ölkənin hüquqçuları Bakıda toplaşır**

yazısı səh.2-də

**Soros təhlükəsi bitir - dünya “rəngli inqilablar”dan qurtulur**

yazısı səh.12-də

**Xərçəngin müalicəsi ilə bağlı Nobel almış alimlərə Bakıdan reaksiyalar**

yazısı səh.7-də

**Rayonlarda binaların dam örtükləri təzələnəcək**

yazısı səh.13-də

**Çeçenistan və İnquşetiya sərhədində gərginlik artır**

yazısı səh.12-də

**“Son 9 ayda bankların aktivləri təxminən 39 faiz artıb” - iqtisadçı**

yazısı səh.13-də

# ERMƏNİSTANDA SİYASİ BÖHRAN, RUS “BARMAĞI” VƏ BAKININ SƏBRİ

Düşmən ölkədə gedən proseslər onun daxili işi olmaqdan çıxır; **fransız nəşri:** “Azərbaycan və Türkiyə kimi düşmənlər arasında sıxılan Ermənistan...”

yazısı səh.8-də




# Hollandiyada QRU zabitləri ifşa edildi - beynəlxalq qalmaqal

Rusiyanın Baş Kəşfiyyat İdarəsinin ələ keçən zabitləri Haaqada yerləşən Kimyəvi Silahların Qadağan olunması Təşkilatının (OPCW) kompüter şəbəkəsinə kiber hücum etməyi planlaşdırırmış

yazısı səh.7-də



*Azay Quliyev:*

**“Paşinyanın qeyri-realist, əsassız cəhdləri danışıqlar prosesini tamamilə pozmaq məqsədi daşıyır”**

yazısı səh.9-da



*Əhməd Qəşəmoğlu:*

**“Kəndlilərin heç də hamısı Bakıya gələn kimi xoşbəxt olmayıb”**

yazısı səh.10-da



**Rüfət Aslanlının vəzifəsinin ləğv olunmasının səbəbləri**

yazısı səh.3-də



## Prezident Beyləqanın icra başçısını vəzifəsindən azad etdi

Prezident İlham Əliyev Vaqif Abdullayevin Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.

“Report” xəbər verir ki, sərəncamla Vaqif İdris oğlu Abdullayev Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

## Tabor komandirlərinin toplanışı keçirilir



**Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq tabor və divizion komandirləri, o cümlədən qərargah rəisləri ilə toplanışlar keçirilir.**

Müdafiə Nazirliyindən Trend-ə verilən məlumata görə, toplanışda zabitlərin bilik və praktiki vərdişləri qiymətləndirilir, həmçinin müasir ümumqoşun döyüşünün aparılması üzrə nəzəri bilikləri yoxlanılır.

Şəxsi heyət rəhbər sənədləri bilmələri üzrə test, atəş, taktiki-xüsusi və fiziki hazırlıq, eləcə də döyüş maşınlarının idarə olunması üzrə məqbullar verir.

## İnterpolun rəhbəri Çində saxlanıldı, istintaqa cəlb edildi



**İnterpolun prezidenti Men Hunvey sentyabrın 29-da Çinə səfər etdikdən sonra bir həftə telefon zənglərinə cavab verməyib. Virtualaz.org “Europe 1" radiosuna istinadən xəbər verir ki, 64 yaşlı beynəlxalq polis təşkilatı rəhbərinin yoxa çıxması barədə onun həyat yoldaşı məlumat verib. Qadın uşaqları ilə birlikdə Fransanın Lion şəhərində yaşayır.**

Fransa polisinin itkin düşməsi ilə bağlı araşdırmalara başladıqdan sonra bilinib ki, “İnterpol”un rəhbəri Men Xunvey Çində istintaqa cəlb olunub. Bu barədə Sputnik Azərbaycan"South China Morning Post"-a istinadən xəbər verir.

Mənbə nəşrə bildirib ki, 64 yaşlı Men Xunvey təyyarədən endiyi vaxt Çinin hüquq-mühafizə orqanları tərəfindən saxlanılaraq, naməlum istiqamətdə aparılıb. Hazırda Çin tərəfinin “İnterpol” rəhbərini hansı iş üzrə istintaqa cəlb etdiyi bilinmir. Onun harada saxlandığı da məlum deyil.

## Mənsimovun bir tankerini əlindən alıb hərraca çıxardılar



**Azərbaycanlı oliqarx Mübariz Mənsimovun “Palmali” gəmiçilik şirkətinə məxsus tankerlərdən biri Estoniyada limana olan borcuna görə hərraca çıxarılıb. Virtualaz.org xəbər verir ki, “Masallı” adlı 13 min ton tutumu olan tanker bir neçə aydır borca görə təmir üçün yan aldığı Estoniya limanlarından birində saxlanılırdı. Gəmi heyəti aylardır maaş almırdı. Tankerin satılmasına dair hərrac oktyabrın 31-nə təyin edilib.**

Xatırladaq ki, Mənsimovun donanması böyük borclar üzündən batır, “Palmali”nin bir neçə tankeri Rusiya sahillərində faktiki atılmış vəziyyətdədir və heyət üzvləri aylardır maaş almadıqlarına görə dəfələrlə aclıq aksiyaları keçiriblər. “Palmali Gemiçilik” A.Ş. şirkətinin Rusiyadakı törəmə şirkəti “Palmali” MMC barədə Rostovda müflisləşmə proseduru başladılıb.

# DGK və Vergilər Nazirliyi birgə kollegiya iclası keçirdi



**Oktyabrın 5-də Dövlət Gömrük Komitəsində Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2018-ci il tarixli 260 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı”nın icra vəziyyətinin müzakirə edilməsi ilə bağlı Dövlət Gömrük Komitəsinin və Vergilər Nazirliyinin birgə kollegiya iclası keçirilib. İclasda Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Azəzbaycan Respublikasının vergilər naziri Mikayıl Cabbarov, eləcə də müvafiq strukturların rəhbərləri iştirak edib.**

Bu barədə musavat.com-a DGK-nın mətbuat xidmətindən məlumat verilib.

İclası açan Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilən “İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı”na uyğun olaraq, hər iki qurumun əməkdaşlarından ibarət işçi qrupunun yaradıldığını və kollegiya iclasında görülən işlərin, qarşıda duran vəzifələrin müzakirə olunacağını bildirib. Dövlət başçısı tərəfindən hər iki qurum qarşısında qoyulan tapşırıqların qısa zaman kəsiyində qüsursuz həyata keçirilməsinin vacibliyinə toxunan Komitə sədri onu da qeyd edib ki, artıq Dövlət Gömrük Komitəsi ilə Vergilər Nazirliyi arasında səmərəli əməkdaşlıq əlaqələri qurulub və bu əməkdaşlığın müsbət faydalarını bütün sahibkarlar və biznes subyektləri gündəlik fəaliyyətlərində hiss edəcəklər.

Kollegiya iclasında çıxış edən vergilər naziri Mikayıl Cabbarov geniş formatda görüşün keçirilməsinin qurumlar arasındakı əməkdaşlığın genişləndirilməsinə xidmət etdiyini, Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan tapşırıqların uğurla icrası üçün birgə fəaliyyətin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb. M.Cabbarov Tədbirlər Planında nəzərdə tutulmuş işlərin intensivləşdirilməsinin vacibliyini vurğulayıb, gömrük və vergi orqanlarının fəaliyyətinin əlaqələndirilməsi baxımından həyata keçirilən tədbirlərin müsbət fiskal nəticələri olacağını qeyd edib.

Daha sonra hər iki qurumun nümayəndələri Tədbirlər Planının icrası ilə bağlı görülən işlərə dair hesabatla çıxış edərək, qarşılıqlı məlumat mübadiləsinin, vahid risk platformasının təşkili, qanunvericilikdə həyata keçirilən dəyişikliklər və digər məsələlər barədə məlumat veriblər.

**Sonda Tədbirlər Planında nəzərdə tutulan işlərin icrasının daha da sürətləndirilməsi üçün aidiyyəti strukturlara müvafiq tapşırıqlar verilib.**

❑ Musavat.com



## 10 ölkənin hüquqçuları Bakıda toplaşır

**Hüquq professoru İlham Rəhimovun təşəbbüsü ilə Bakıda beynəlxalq konfrans keçiriləcək.**

Oktyabrın 8-də “Holiday İnn” otelində Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyası və Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun birgə təşkilatçılığı ilə “Beynəlxalq terrorizm və müasir şəraitdə ona qarşı mübarizə” mövzusunda beynəlxalq konfrans keçiriləcək.

Beynəlxalq konfransa Azərbaycanın dövlət qurumlarının təmsilçiləri, respublikanın tanımış hüquqşünasları, eləcə də Rusiya, Türkiyə, İngiltərə, Bolqarıstan, Serbiya, İtaliya, Moldova, Ukrayna, Belarusdan nüfuzlu hüquqşünaslar qatılacaq. Musavat.com xəbəri Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının Bakı ofisindən alıb. Yada salaq ki, quruma hüquq professoru İlham Rəhimov rəhbərlik edir.

Tədbir çərçivəsində Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının növbəti toplantısı da keçiriləcək. Toplantıda Assosiasiyanın 2017-ci ilin mayından 2018-ci ilin avqustunadək olan dövr üçün fəaliyyətinə dair məlumat veriləcək, yeni namizədlərin üzvlüyə qəbul olunması ilə bağlı təkliflərə baxılacaq. Qurum üzvləri təşkilatın 2018 - 2019-ci illər üçün Fəaliyyət Planı təsdiqləyəcək, gündəlikdə duran məsələləri müzakirə edəcəklər.

❑ Aygün MURADXANLI, Musavat.com



## Şənbə və bazar günləri gecə saatlarında 2 ərazidə hərəkət məhdudlaşdırılacaq

**Şənbə və bazar günləri gecə saatlarında 2 ərazidə hərəkət məhdudlaşdırılacaq. Bu barədə Trend-ə “Azərbaycan Avtomobil Yolları” Dövlət Agentliyinin İctimaiyyətlə Əlaqələr Şöbəsindən məlumat verilib.**

Aparılacaq təmir işləri ilə əlaqədar olaraq 6 oktyabr saat 23:00-dan 7 oktyabr səhər saat 06:00-a qədər (7 saat) Bakıxanov küçəsinin Səməd Vurğun küçəsi ilə kəsişməsində, növbəti gün, yəni 7 oktyabr saat 23:00-dan 8 oktyabr səhər saat 06:00-a qədər (7 saat) isə Heydər Əliyev prospektinin Böyük Şor yol qovşağından şəhər istiqamətində köməkçi yolun Bağırov körpüsünün altından keçən hissəsində hərəkət məhdudlaşdırılacaq.

Agentlik vətəndaşlardan yarana biləcək müvəqqəti narahatlığa görə, öncədən üzr istəyir və sürücülərdən aparılan işlərə anlayışla yanaşmalarını, öncədən hərəkət istiqamətlərinə uyğun olaraq alternativ yollardan istifadə etmələrini xahiş edir.



## “AŞ PA-nın payız sessiyasında Dağlıq Qarabağ məsələsi gündəmə gətiriləcək” - Səməd Seyidov

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) payız sessiyasında Dağlıq Qarabağ məsələsi gündəmə gətiriləcək. Bunu özəl olaraq Trend-ə Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib.**

S.Seyidov bildirib ki, Azərbaycan nümayəndə heyəti AŞ PA-nın payız sessiyasında iştirak edəcək və müzakirə olunacaq məsələlərə münasibətini bildirəcək.

Nümayəndə heyətinin rəhbəri qeyd edib ki, sessiyanın gündəliyində birbaşa Azərbaycanla bağlı məsələ yoxdur:

“Sessiyada birbaşa Azərbaycanla bağlı məsələ olmasa da, biz Azərbaycanın ağrılı problemi olan Dağlıq Qarabağ, qaçqın və məcburi köçkünlər məsələsini həmişə gündəmə gətirirk və bu dəfə də gətirəcəyik”.

Xatırladaq ki, AŞ PA-nın payız sessiyası 8-12 oktyabr tarixlərində Strasburqda baş tutacaq.

## Səhiyyə Nazirliyinə yeni səlahiyyət verildi

**Səhiyyə Nazirliyinin səlahiyyətləri artırılıb. “Report” xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə fərman imzalayıb.**

Dəyişikliklə Əsasnamənin III (Nazirliyin vəzifələri) hissəsinə yeni 8.10-3 bəndi əlavə edilib.

Əlavəyə əsasən, Səhiyyə Nazirliyi həm də tütündən istifadənin nəticələrindən qorunma sahəsində dövlət siyasətini və dövlət nəzarətini həyata keçirəcək.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

YENİ MÜSAVAT
N 210 (7099) 6 oktyabr 2018

**5 oktyabr Azərbaycanda Müəllimlər günü qeyd olunur. 1966-cı il oktyabrın 5-də YUNESKO və Beynəlxalq Əmək Təşkilatının birgə təşkilatçılığı ilə çağırılan konfransda müəllimlərin peşə fəaliyyətinin şərtlərini təyin edən "Müəllimlərin statusu haqqında" adlı ilk beynəlxalq sənəd imzalanıb. 1994-cü ildən isə həmin tarix YUNESKO tərəfindən Ümumdünya Müəllimlər Günü kimi təsis edilib. Bu tarix həmçinin BMT-nin də beynəlxalq və ümumdünya günlər sisteminə daxildir. Bu günün qeyd olunması müəllimlərin cəmiyyətdəki mövqeyi, təhsil və inkişafdakı roluna diqqət çəkməyi nəzərdə tutub.**

# "Müəllimlər sosial və maddi sıxıntılardan uzaq yaşamalıdır"

## Tanınmışların fikrincə, Azərbaycanda müəllimlər gününün qeyd olunması olduqca vacibdir və bu, pedaqoqlara diqqətin göstəricisidir...



Hazırda dünyanın 100-dən çox ölkəsində ümumdünya səviyyəsində qeyd olunduğu halda, bəzi ölkələrdə müxtəlif tarixlərdə ayrıca olaraq milli səviyyədə "Müəllimlər günü" qeyd edilir. Məsələn, müxtəlif əlamətdar hadisələr əsasında Albaniyada 8 mart, Cənubi Koreyada 15 may, Argentinada 11 sentyabr, Çində 28 sentyabr, Özbəkistanda 1 oktyabr, Türkiyədə 24 noyabr tarixlərində Müəllimlər günü qeyd olunur.

"Yeni Müsavat" olaraq ictimaiyyətdə tanınan bir neçə müəllimlə söhbət edib, bu günlə bağlı fikirlərini aldıq.

**Bakı Dövlət Universitetinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, professor Cahangir Məmmədli** bildirdi ki, hər kəs bu həyatda qazandığı uğurlara görə ilk növbədə müəlliminə borcludur:

"Almaniyanın federal kansleri Angela Merkeldən nazirlər soruşurlar ki, nə üçün nazirlərin maaşı, müəllimlərin əmək haqqından azdır. O da cavab verir ki, mən sizi öyrədənlərə sizdən az maaş verə bilmərəm. Yeni ölkələr var ki, müəllimləri yüksək qiymətləndirirlər. Azərbaycanda da müəllimlərə verilən qiymət yüksəkdir. Ən azından cəmiyyət müəllimləri çox yüksək dəyərləndirir. Mənə elə gəlir ki, müəllim gününün təsis olunması da, dövlət tərəfindən göstərilən qayğılar siyahısına daxildir. Görürük ki, imtahanla müəllimlərin işə qəbulu həyata keçirilir. Orada çox maraqlı müəllimlər meydana çıxır. Bildirilir ki, hazırda cavan müəllimlər daha çox kənd məktəblərini seçirlər. Bu informasiya məni çox sevindirir. Çünki doğrudan da kəndlərdə müəllim çatışmazlığı var. İstedadlı müəllimlərin ancaq şəhərə yığılması məni çox narahat edirdi. Azərbaycan müəllimi böyük ləyaqətə malikdir. Ancaq onların da içərisində elələri var ki, buna xələl gətirirlər. Müəllimə verilən əmək haqqı da artdıqca bütün müəllimlər ləyaqət sahibinə çevriləcəklər".

**Azərbaycan Texniki Universitetinin professoru, politoloq Qabil Hüseynli** də 40 ilə yaxındır ki, müəllim kimi çalışır. Q.Hüseynli "Yeni Müsavat"a açıqlamasında bu günlər bağlı fikirlərini bildirdi: "Hesab edirəm ki, müəllimlik peşəsi cəmiyyətimizin ən şərəfli peşələrindən biridir. Cəmiyyətin zehni intellektual potensialının artmasında, mədəni səviyyəsinin yüksəlməsində müəllimin əməyi misilsizdir. Müəllim həm də yaradıcı bir insan, alim, tərbiyəçi deməkdir. Bu baxımdan müəllim gününün qeyd edilməsi sözsüz ki, vacibdir. Müəllim günü həm də kifayət qədər müəllimlərə hörmət gətirəcək, cəmiyyətdə onların nüfuzunu yüksəldəcək şəraitdə keçirilməlidir. Müəllim əməyinə lazımi qiymət verilməlidir. Müəllimlər sosial və maddi sıxıntılardan uzaq yaşamalıdır. Onlara elə bir şərait yaradılmalıdır ki, müəllimlər əsas diqqətlərini elmi yaradıcılığa, peşə fəaliyyətlərinə yönəltsinlər. Bir sözlə müəllimlər intellektual hazırlıqlı, yeni texnologiyanı bilən, dünya standartlarına cavab verən şagird və məzun yetişdirməkdə öncül mövqelərə sahiblənsinlər. Bu məsələdə dövlətin qayğısına böyük ehtiyac var. Müəllim əməyi zənnimcə Azərbaycanda lazımınca qiymətləndirilir. Ancaq bu qayğının daha da gücləndirilməsinə ehtiyac olduğu qənaətindəyəm. Mən 40 ilə yaxındır ki, müəllim işləyirəm. Əvvəlcə Azərbaycan Texniki Universitetində kafedra müəllimi, indi isə professoram".

**Sosioloq Əhməd Qəşəmoğlu** da Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllim kimi çalışır. Ə.Qəşəmoğlu "Yeni Müsavat"a bildirib ki, müəllim hər cəmiyyətdə diqqət mərkəzində olub:

"Hər kəs də müəllimə böyük qiymət verib. Atatürkün gözəl sözü var. Deyib ki, mənim ətim, qanım atam və anamdandır, ancaq əqlim, beynim müəllimimdəndir. Doğrudan da hər bir uşağı dünyaya gətirmək, məsələnin bir tərəfidir. Onu həyata vətəndaş kimi hazırlamaq müəllimin öhdəsinə düşür. Ona görə də müəllimlik peşəsi çox müqəddəsdir. Müəllimin öz nüfuzunu qoruması da əsas məsələdir. Bizim gəncliyimizdə müəllim nüfuzu çox yüksək idi. Şəxsiyyətli müəllim indi də öz nüfuzunu hər zaman saxlayır. Bu gün münasibətilə həmin müəllimlərin hamısını təbrik edirəm. Düşünürəm ki, bu günü bir qədər də təmtəraqlı keçirmək olar. Ancaq ucuz təmtəraq xatirinə yox. Mən 40 ildir ki, müəllim kimi çalışıram. Hazırda da Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllim kimi çalışıram".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Rüfət Aslanlının vəzifəsinin ləğv olunmasının səbəbləri

## "Maliyyə Bazarlarına Nəzarət Palatasının bank sektorunda gözlənilən nəticələri əldə edə bildiyini söyləmək mümkün deyil"


Rüfət Aslanlı

**Artıq xəbər verdiyimiz kimi, Maliyyə Bazarlarına Nəzarət Palatası(MBNP) publik hüquqi şəxsin Direktorlar Şurası ləğv olunub.**

Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi Palatanın yeni nizamnaməsində əksini tapıb. Sənədə əsasən bundan sonra Palatanın idarəetmə orqanı İdarə Heyətidir. Bundan əvvəlki nizamnamədə isə qurumun idarə edilməsi İdarə Heyəti ilə yanaşı, Direktorlar Şurasına həvalə edilmişdi.

Məlumat üçün bildirək ki, Şuranın ləğv olunması ilə sədr Rüfət Aslanlı, müavini Nigar Məmmədova və Şuranın üzvləri vəzifələrini itiriblər. Hazırda Palatanın İdarə Heyətinin rəhbəri İbrahim Alışovdur.

Onu da qeyd edək ki, R.Aslanlının MBNP-dəki səlahiyyətlərinin əksəriyyəti aylar öncədən İdarə Heyətinin sədrinə dövr edilmişdi. Ondan əvvəl R.Aslanlı barədə mediada uzun müddət müxtəlif iddialar yer alıb. Belə ki, onun dəbdəbəli həyat sürdüyünə, Fransada öz adına şərab istehsal etdirdiyinə, həmçinin Palatada özünə 60 min manat əmək haqqı müəyyənləşdirdiyinə dair məlumatlar yayılmışdı. Uzun müddət idi ki, ictimaiyyət Palatada faktiki olaraq R.Aslanlı və İ.Alışovun timsalında ikihakimiyyətliliyin hökm sürdüyü qənaətindəydi.

Bəzi müşahidəçilər hesab edirlər ki, R.Aslanlının nüfuzdan düşməsinə səbəb hakimiyyətin bəzi yüksək dairələrinin maraqları təmsil olunan bank sektorunda güzəştsiz mövqe nümayiş etdirməsi olub. Onun problemli banklara dəstək verilməsinin qatı əleyhidarı olduğu, yalnız öz gücünə ayaqda qala bilən bankların fəaliyyətini davam etdirməsini məqbul saydığı deyilir. Bu isə dövlətdən dəstək almaq istəyən bəzi banklar və onların arxasında dayanan qüvvələri narahat etməyə bilməzdi.

Maraqlıdır ki, bəzi mənbələr tamam fərqli düşünürlər. Onların fikrincə, bank sektorunun ağır vəziyyətində MBNP-yə rəhbər gətirilən R.Aslanlıya yüksək etimad göstərilib, istədiyi çoxsaylı səlahiyyətlər verilib. Lakin o, bu səlahiyyətlərdən öz mövqelərini möhkəmlətmək üçün daha çox yararlanıb, nəinki bank sektorunu böhrandan çıxarmaq üçün.

**İqtisadçı-ekspert Samir Əliyev** bildirir ki, MBNP Azərbaycan maliyyə sisteminin çox ağır durumda olduğu bir vaxtda yaradılıb: "2015-ci ildə ölkədə iki dəfə devalvasiya baş vermişdi, banklar çox ağır duruma düşmüşdü. Bəzi bankların lisenziyası alınmışdı, bir çox digər banklar çətin şərtlər altında fəaliyyət göstərirdilər. Belə bir dövrdə yaradılan Maliyyə Bazarlarına Nəzarət Palatasının üzərinə böyük məsuliyyət qoyulmuşdu: maliyyə-bank sektorunu qısa müddətdə sağlamlaşdırmalı, problemli bankları qısa müddətdə sektordan uzaqlaşdırmalıydı. Beləliklə, Palata yaradıldıqdan sonra xeyli bank bazarı tərk etdi, sayı 45-dən 30-dək azaldı. Yalnız iki bank birləşdi. Hələ də bir sıra banklar "reanimasiyadadır", onların problemi həllini gözləyir. Palata Azərbaycanda ilk publik hüquqi şəxs, korporativ idarəetmə standartlarına uyğun ilk dövlət qurumudur. Onun ali nəzarət orqanı olan Müşahidə Şurası və idarəedici orqanı olaraq İdarə Heyəti yaradıldı. Gözləmək olardı ki, qarşılıqlı nəzarət mexanizmi işləyəcək. Lakin təəssüflər olsun ki, sonradan nizamnaməyə müəyyən dəyişikliklər edilərək İdarə Heyətinin səlahiyyətləri daha da artırıldı, onunla Müşahidə Şurası arasında ikihakimiyyətlilik yarandı. Nizamnaməyə Müşahidə Şurasının səlahiyyətində olan bəzi məsələlərlə bağlı qərar verilərkən İdarə Heyətinin razılığının tələb olunması kimi müddəa daxil edildi. Son aylarda ümumiyyətlə, Müşahidə Şurasının fəaliyyəti görünmürdü, bütün idarəetmə İdarə Heyətində cəmləşmişdi".

**Ekspertə görə, MBNP-də müşahidəçilik institutunun ləğv edilməsi korporativ idarəetmə modelindən imtina deməkdir:** "Faktiki olaraq bu gün Palatanın təşkilati-hüquqi statusu qeyri-müəyyəndir. Gözlənilir ki, bundan sonra Palataya dövlət tərəfindən daha çox dəstək veriləcək, onun maliyyələşməsi də daha çox dövlət büdcəsi hesabına həyata keçiriləcək. Ola bilsin, Palatanın banklardan yığdığı vəsaitin məbləği ya azaldılsın, ya da ümumiyyətlə, ləğv olunsun. Palatanın bank sektorunda gözlənilən nəticələri əldə edə bildiyini söyləmək mümkün deyil. Baxmayaraq ki, bu qurum bir çox məqamlarda həddindən artıq sərt görünən addımlar da atdı, amma sektorun hələ tam olaraq böhrandan çıxdığını söyləmək qeyri-mümkündür".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 210 (7099) 6 oktyabr 2018

**Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) "Lifttəmir" İstehsalat Birliyində yol verilmiş qanun pozuntuları ilə bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə və ya israf etmə - xüsusi ilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb. Məlum olub ki, Qüdrət Şükürovun işdən qovulması baş prokuror Zakir Qaralovun təqdimatı əsasında baş tutub. Baş prokurorun bu haqda Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsini icra edən Eldar Əzizova müvafiq müraciətindən sonra "baş liftçi" işdən qovulub. Eyni zamanda Baş Prokurorluğun istintaq qrupu "Lifttəmir" İstehsalat Birliyində müvafiq yoxlamalara başlayıb.**

# "Baş liftçi"ni baş prokurorun təqdimatı ilə işdən qovublar - sensasion təfərrüat

## Qüdrət Şükürovun zəngin əmlakını, banklardakı milyonlarını kimlərin adına keçirdiyi "Yeni Müsavat"da!

**Bu arada Qüdrət Şükürovun işdən azad edilməndən sonra ölkədən getməsi haqda xəbərlər də yayılıb.** Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov "Report"a Q.Şükürovun ölkəni tərk etməsi ilə bağlı yayılan məlumatların həqiqəti əks etdirmədiyini deyib. "Lifttəmir" İstehsalat Birliyində müvafiq yoxlamaların başladığını da xidmət rəhbəri təsdiq edib.

**Belə xəbərlər var ki, işdən qovulandan sonra Qüdrət Şükürova yaşadığı ünvanı tərk etməmək haqda xəbərdar edilib, ondan iltizam alınıb.** Qüdrət Şükürovun adı illərdir ki, liftlərlə bağlı maxinasiyalarda və korrupsiyada hallanır. Onun sərvəti, ailə üzvlərinin dəbdəbəli həyat tərzi haqda da məlumatlar illərdir ki, mətbuatın gündəmindən düşmür. Bakıda liftlərin durumu hər ötən il pisləşdiyi göz önündə ikən "baş liftçi"nin varidatı əksinə, artıb. 500-600 manat məvacib alan bir məmurun dünyanın dörd bir tərəfində, Türkiyədə, Avropada, Rusiyada mal-mülk alması, banklardan milyonlarla pul çəkməsi xəbərləri də var. Ən son məlumatlar isə belədir ki, Qüdrət Şükürov mülk-mülklərini, bank hesablarındakı vəsaitləri müxtəlif şəxslərin adına keçirib.

"Yeni Müsavat"a daxil olan məlumatlarda Qüdrət Şükürovun mal-mülklərini Azərbaycan vətəndaşları İlqar, Aynur, Xuraman, Gumaş Ramazanovların adına keçirməsi iddia edilir. Bildirilir ki, Qüdrət Şükürov Xətai rayonunda yerləşən "Women's secrets" gözəllik salonu, "Bank of Baku"dakı çox böyük məbləğdə vəsaitlər, Bakıdakı çoxsaylı mənzillər, bağ evləri, bahalı nəqliyyat vasitələri də Ramazanovların adına rəsmiləşdirilib.



Bu iddianın ortada olması onu deməyə əsas verir ki, Qüdrət Şükürov vəzifədən çıxarıla biləcəyini, müvafiq olaraq istintaqa cəlb olunma ehtimalını göz altına alıbmış. Və ya mümkündür ki, Qüdrət Şükürov əmlakının izinin itirilməsinə adı ABŞ-ın Xarici Korrupsiyaya qarşı Mübarizə Aktını pozulması ilə müşayiət olunan korrupsiya cinayətinə qarışandan sonra başlayıb. Tələsik adındakı mal-mülkü başqalarının adına keçirməklə əlindən çıxmasını önləməyə çalışıb.

Sentyabrın 15-də ABŞ-ın Qiymətli Kağızlar Komitəsi (SEC) "United Technologies Corporation" şirkətini 13 milyon 400 min dollar cərimələyib. Buna səbəb şirkətin törəmə müəssisəsi olan "Otis Elevator Co." lift istehsalı şirkəti tərəfindən Bakı Lift-Təmir İstehsalat Birliyinə (SEC-in sənədlərində bu müəssisənin adı "Liftremont" kimi gedir) rüşvət verilməsidir. Bu haqda Azərbaycan mətbuatında, "Yeni Müsavat" qəzetinin 18 sentyabr tarixli sayında (https://musavat.com/news/abs-da-baslanmis-liftremont-korrupsiya-qalmaqali-boyudu-sen sasion-gelisme_556417.html?d=1 ttps://musavat.com/news/abs-da-baslanmis-liftremont-korrupsiya-qalmaqali-boyudu-sen sasion-gelisme_556417.html?d=1 ) "ABŞ-da başlanmış "Liftremont" korrupsiya qalmaqalı böyüdü - sensasion gəlişmə" sərlövhəli yazı dərc olunub. Bundan sonra Qüdrət Şükürovun keçmiş qudası, Azərbaycan vətəndaşı Rəfael Əsgərov bir neçə dövlət qurumu ilə yanaşı ABŞ-ın ölkəmizdəki səfirliyinə də müraciət ünvanlayıb. O, müraciətində olduqca ilginc məqamlara toxunub, bu qalmaqallı korrupsiya cinayətinin hərtərəfli araşdırılması üçün ifadə verməyə hazır olduğunu bəyan edib. Onun müraciətlərindən biri də baş prokuror Zakir Qaralovun adına yazılmışdı. Yada salaq ki, SEC-in saytında yer alan məlumatda bildirilir ki, "Otis Elevator Co." Bakının dövlət balansında olan binaları liftlə təchiz etmək üçün Bakı Lift-Təmir İstehsalat Birliyinin məmurlarını rüşvətlə ələ alıb. SEC şirkətə qarşı təhqiqatı daxili administrativ sərəncam çərçivəsində aparıb və işin məhkəməyə göndərilməməsi üçün "United Technologies Corporation"a cərimə ödəməyi təklif edib. Şirkət təkliflə razılaşıb və 13 milyon 900 min dolları dövlətə ödəyib. Bununla da korrupsiya sxemini üzə çıxaran təhqiqatın nəticələrini qəbul etmiş olub.

SEC-in məlumatında qeyd edilir ki, 2012-ci ildə Bakı Şəhər İcra Hakimiyyəti şəhərin ictimai yaşayış binalarının yeni liftlərlə təchiz edilməsinə dair tender elan edib. "Otis Elevator Co." bu tenderi udmaq üçün Bakı Lift Təmir İstehsalat Birliyinin rəhbərliyinə rüşvət verməyə razılaşıb. Rüşvətin verilməsi və liftlərin alınması üçün kağız üzərində subpodratçı şirkətlər və vasitəçilər üzərindən qurulmuş sxemdən istifadə olunub. İlk sxem 2012-ci ilin martında "Otis Rusiya" şirkəti tərəfindən liftlərin Bakı Lift-Təmir İstehsalat Birliyinə birbaşa satışı ilə bağlı olub. Bu sövdələşmənin həcmi 1.8 milyon dollar olub və məbləğin az qala yarısını "şapka" kimi İstehsalat Birliyinin rəhbərliyinə ötürüblər. Eldar Əzizovun məlum qərarına qədər İstehsalat Birliyinin rəisi vəzifəsini Qüdrət Şükürov tuturdu.

Qüdrət Şükürovun bu korrupsiya əməli qızının ikinci dəfə dəbdəbəli toyla ərə getməsi xəbərlərindən sonra üzə çıxdı. Şükürovun keçmiş qudası Rafael Əsgərov onun korrupsiya əməlləri barədə faktları yerli KİV-lərə, xüsusən "Yeni Müsavat"a ötürdü, habelə müxtəlif dövlət orqanlarına yazdı.

O, müsavat.com-a bildirirdi ki, 2013-cü ilin aprelində Q.Şükürovun təklifi ilə birlikdə Moskvaya gediblər. Həmin səfərdə Q.Şükürov içki məclisindən sonra Moskvada yaşayan bir erməni ilə əlaqə saxlayıb. Həmin erməni Vardan Avakyan olub: "OTİS" lift zavodunun rəhbərliyində təmsil olunan V.Avakyana Q.Şükürov özünü qeyri-azərbaycanlı kimi təqdim etməklə onunla görüşmək istədiyini deyib. Növbəti gün isə onunla görüşə gedib. R.Əsgərov yazıb ki, ermənilərin işğal etdiyi Qubadlıdandır və həmin vaxt qudası ilə erməninin görüşünə getməkdən imtina edib. Həmin görüşdən sonrakı günlərdə qudalar Moskvadan İstanbula uçublar. Q.Şükürov qudasına deyib ki, "OTİS" zavodu ilə müqavilə bağlayıb. İstanbulda olarkən qudalar ən bahalı yaşayış massivlərindən birinə - "Qoru-Floriya"ya gediblər. Orada Q.Şükürov hər birinin qiyməti 850 min dollar olan iki 4 otaqlı tam təmirli, içində bahalı mebelləri olan mənzil alıb. Mənzillərə görə ödənilən 1 milyon 700 min pulu "OTİS"in işçisi Andrey adlı şəxs "Qoru-Floriya"ya köçürüb. Sitat: "Bu, mənim gözlərimin qarşısında baş verdi. Mən ümumi söhbətlərdən başa düşdüm ki, həmin pul "otkat"dır".

Rəfael Əsgərov Qüdrət Şükürovun "otkat"ları haradan, hansı yollarla alması haqda da bilgilərə malikdir. ABŞ-da bu qalmaqallı korrupsiya işi ilə bağlı araşdırmalardan xəbər tutunca böyük korrupsiya cinayəti ilə bağlı şahid qismində ifadə vermək üçün olduqca ciddi addımlar atıb. 1 həftə əvvəl Rəfael Əsgərov ABŞ-ın ölkəmizdəki səfirliyinə, Bakı Şəhər İcra Hakimiyyətinə və baş prokurora sensasion məktub ünvanlayıb. O, şahid qismində ifadə vermək üçün Azərbaycan hüquq-mühafizə orqanları ilə yanaşı ABŞ-ın müvafiq dövlət qurumlarına da bildiyi və şahidi olduğu böyük korrupsiya qalmaqalı ilə bağlı məluma verməyə hazır olduğunu bəyan edib.

Rəfael Əsgərov "Yeni Müsavat"ın əməkdaşı ilə söhbətində belə bir müraciət etdiyini təsdiqləmişdi. Demişdi ki, sentyabrın 17-də Azərbaycanın Baş Prokurorluğunda, Bakı Şəhər İcra Hakimiyyətində və ABŞ-ın ölkəmizdəki səfirliyində olub, hər 3 ünvana müvafiq rəsmi müraciətini təqdim edib. Rəfael Əsgərov həmin müraciətində vurğulayırdı ki, Azərbaycan KİV-ləri (musavat.com, virtualaz.org) yazırlar ki, SEC-in rəsmi saytında buna səbəb kimi şirkətin törəmə müəssisəsi olan "Otis Elevator Co." lift istehsalı şirkəti tərəfindən Bakı Lift-Təmir İstehsalat Birliyinə (SEC-in sənədlərində bu müəssisənin adı "Liftremont" kimi gedir) rüşvət verilməsindən yazıb.

Qüdrət Şükürovun qızı, vaxtilə Rəfael Əsgərovun gəlini olmuş Aysel Şükürova atasının işdən çıxarılması və istintaqa cəlb edilməsi ilə bağlı mətbuat nümayəndələrinin suallarına söyüşlə cavab verib. Onu da qeyd edək ki, hazırda Nərimanov Rayon Məhkəməsində hakim İslam Qurbanovun sədrliyi ilə Qüdrət Şükürovun eks və hazırkı kürəkənlərinin işi üzrə məhkəmə prosesi davam edir.

İttiham aktında yazılanlara görə, Elşən Əsgərli keçmiş arvadı, Aysel Şükürova indiki əri Oktay Əhmədova qarşı xuliqanlıq edib. İttiham aktında yer alan məlumatlara görə, o, xuliqanlıq edərkən dostları yanında olublar. 7 yanvar 2017-ci il tarixdə Nərimanov rayonu, 2-ci Sülh döngəsi küçəsində yerləşən avtomobil dayanacağında baş verən mübahisə zəminində Oktay Əhmədova zor tətbiq edildiyi qeyd olunur. Elşən Əsgərlinin atası Rafael Əsgərov "Yeni Müsavat"a demişdi ki, əslində döyülən də, iş üzrə təqsirləndirilən şəxs statusuna gətirilən də onun oğludur. Sadəcə, Qüdrət Şükürov əldə etdiyi milyonlar hesabına indiki kürəkənini zərərçəkənə, keçmiş kürəkənini isə təqsirləndirilən şəxsə çevirə bilib...

**E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 210 (7099) 6 oktyabr 2018

# Milli Məclisdə Rusiyanın ermənipərəst deputatına qarşı sərt çıxışlar

## Parlamentin iclasında Bakıda keçirilən Qarabağ mitinqi ətrafında da geniş müzakirələr oldu; **Siyavuş Novruzov**: "Gedib öz işləri ilə məşğul olsunlar, Dağlıq Qarabağ adı altında öz oyunlarını oynamasınlar"

**Oktyabrın 5-də Milli Məclisin növbəti plenar iclası spiker Oqtay Əsədovun sədrliyi ilə keçirildi. İclasın gündəliyində çoxsaylı məsələlər olsa da, deputatlar aktual məsələlərə də münasibətlərini bildirdilər.**

**Deputat Aydın Mirzəzadə** ölkədə Müəllimlər gününün qeyd olunduğunu bildirdi və bu münasibətlə müəllimləri təbrik etdi. Dedi ki, 15 il ərzində 5 min orta məktəbin 3 min 500-ü ya yenidən tikilib, ya da təmir edilib. Digər çıxışlarda da ölkə müəllimlərinə peşə bayramı münasibətilə təbriklər səsləndi, sədr də öz təbrikini çatdırdı.

**Milli Məclisin komitə sədri, YAP icra katibinin müavini Siyavuş Novruzov** Qarabağla bağlı Bakıda keçirilən mitinqə diqqət çəkdi: "Son dövrlərdə bir qrup insan Dağlıq Qarabağ məsələsindən öz siyasi məqsədləri üçün istifadə edir. Qarabağla heç bir bağlılığı olmayan insanlar Azərbaycanın əsas problemi ilə bağlı məsələni ortaya atmaqla həm də erməni dəyirmanına su tökürlər". O bildirdi ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda, keçirilən tədbirlərdə Azərbaycan prezidenti daim ərazi bütövlüyünü əsas şərt kimi ortaya qoyur: "Prezidentimiz nəinki Azərbaycanın işğal olunmuş əraziləri, həmçinin dədə-baba torpaqlarımızda erməni dövlətinin yaradılmasını da daim diqqətə çatdırır. Bunun nəticəsi olaraq xalq prezident seçkilərində cənab prezidenti növbəti dəfə dəstəkləyib, ona səs verdi. 90-cı illər təfəkküründə olan insanlar başlayıblar ki, biz mitinq keçirməliyik və bu mitinqin prezidentə Qarabağla bağlı təzyiq olduğunu dünyaya çatdırmalıyıq. Belə çıxır ki, Azərbaycan iqtidarı hansısa güzəştlərə razıdır, ancaq ictimai təzyiq səbəbindən güzəştlərə getmir. Bu, nə düşüncə, nə təfəkkürdür? Burda nə təzyiqdən söhbət gedə bilər?"

**S.Novruzov bəyan etdi ki, Qarabağ bir qrup insanın, yaxud qarabağlıların yox, bütün dünya azərbaycanlılarının məsələsidir. S.Novruzov daha sonra bunları bildirdi:** "Necə ki, vaxtilə "Şuşa getsə, başıma güllə vuracağam", "bir maşın erməni başı gətirəcəyəm" deyənlər bugünkü mitinqlərdə öndə dayanıblar. Bunlar siyasi oyunbazlıq edirlər. Azərbaycan xalqı, Azərbaycan qaçqını bunları görür və məhz onları boykot edirlər. O oyunbazlar başa düşsünlər, gedib öz işləri ilə məşğul olsunlar, Dağlıq Qarabağ adı altında öz oyunlarını oynamasınlar".

**Deputat Bəxtiyar Əliyev** də çıxışa reaksiya verdi: "Vaxtilə bu parlamentdə ümummilli lider bütün siyasi qüvvələrə müraciət etdi ki, Dağlıq Qarabağla bağlı 3 layihə var, gəlib mövqelərini bildirsinlər. Amma onların bir hissəsi gəlib müzakirələrə qatılmadılar. Bəziləri gəldi, amma hansı mövqeni bildirdilər, bunu bütün Azərbaycan xalqı gördü. Bu gün cənab prezidentin rəhbərliyi altında Azərbaycan ordusu yüksək şəkildə inkişaf edir. Ordumuzun son əməliyyatı göstərdi ki, Azərbaycan torpaqlarını heç kimə güzəştə getməyəcək".

**Deputat Fəzail Ağamalı** isə dedi ki, keçirilən mitinq avantürist bir mitinq idi: "Əgər bunlar ölkə prezidenti ilə bərabər olduqlarını orda bəyan etsəydilər, bunu başa düşmək olardı. Bizim hər birimiz Azərbaycan vətəndaşı olaraq prezidentlə, dövlətimizlə birgə olub öz mövqeyimizi bildirməliyik və belə avantürist çıxışlara qarşı çıxmalıyıq!"

Rusiya Dövlət Dumasının MDB ölkələri, Avrasiya inteqrasiyası və soydaşları ilə əlaqələri üzrə komitəsinin sədr müavini Konstantin Zatulinin Azərbaycan əleyhinə səsləndirdiyi növbəti aqressiv açıqlama da parlamentdə müzakirə mövzusu oldu.



**Deputat Çingiz Qənizadə** bu məsələyə diqqət çəkərək dedi ki, MDB ilə iş komitəsinin rəhbərliyində olan şəxsin belə bir mövqeyi qəbulolunmazdır: "Təbii ki, biz onun fikirlərini Rusiyanın mövqeyi kimi qəbul edə bilmərik. Zatulin iddia edib ki, əgər Dağlıq Qarabağda müharibə başlasa, bu, Azərbaycanın dağılması ilə nəticələnə bilər. Daha sonra iddia edir ki, Azərbaycanın siyasəti sənədlərdən fərqli olaraq başqa cürdür. O, bir həmkarımızın özünəməxsus fikirlərini əsas götürüb bunu Azərbaycan dövlətinin siyasəti kimi təqdim etməyə çalışıb. Təbii ki, biz bunu qətiyyətlə pisləyirik!"

**Ç.Qənizadə daha sonra Zatulinin ermənilərə bağlı olmasına diqqət çəkdi:** "Zatulin Dağlıq Qarabağda qondarma "parlament seçkiləri" keçirilərkən qanunsuz olaraq Dağlıq Qarabağa səfər edib və Azərbaycan XİN tərəfindən arzuolunmaz şəxslər siyasına salınıb. Üstəlik, o, Batumidə anadan olub və orada acarlara bərabər, ermənilər də yaşayır. Mən bu tribunadan istifadə edib demək istəyirəm ki, biz daha böyük siyasi məsələlərdə olduqca ehtiyatlı olmalıyıq! Biz heç vaxt demirik ki, 20 Yanvar hadisələrini Rusiya törədib. Biz deyirik ki, bu hadisələri SSRİ rəhbərliyinin əmri ilə sovet ordusu törədib".

**Deputat Kamran Nəbizadə** də bu barədə fikirlərini ifadə etdi: "Azərbaycan qüdrətli ölkədir, uğurları göz önündədir. Bütün ölkələrlə, xüsusilə sərhəddə yerləşən qonşu dövlətlərlə gözəl münasibətlər saxlayır. Hətta Prezident İlham Əliyev bəyan edib ki, Ermənistan işğalçılıq siyasətindən əl çəksə, onlarla da münasibətlər yaratmağa hazırıq". Deputat Rusiya parlamentinin üzvü Zatulinin anti-Azərbaycan bəyanatı haqqında danışarkən dedi ki, bu bəyanat Rusiyanın mövqeyi olmasa da, ziddiyyətlə doludur: "Bu ermənipərəst bir insanın bəyanatıdır. Təklif edirəm ki, belə bəyanatlara qarşı diqqətli və ehtiyatlı olaq. Çünki deputatların çıxışlarına bəzən bizi sevməyən qüvvələr rəsmi don geydirmək istəyir. Bizim Rusiya ilə münasibətlərimiz yaxşılaşdıqca, Ermənistan-Rusiya münasibətləri pisləşir. Mən həmkarlarımın fikirlərinə hörmətlə yanaşıram. Bununla belə, hesab edirəm ki, belə şəxslərin bəyanatlarına cavab verərkən ehtiyatlı olmalıyıq".

**Deputat Elşən Musayev** Azərbaycana qarşı olan qüvvələrin davranışlarını sükutla qarşılayanları ortaya mövqe qoymağa çağırdı: "Bəzən orta ranqlı məmurlar belə mətbuatda haqlarında xırda nəsə gedəndə aləmi bir-birinə qatır, nəsil-nəcabətlərini ayağa qaldırırlar. Amma aylardır parlamentimiz, ayrı-ayrı nüfuzlu insanlarımız haqqında Azərbaycandan kənarda olan bəzi satqınlar tərəfindən ən ağır təhqirlər səsləndirilir, həmin məmurların birindən də səs çıxmır, sanki bunlara aidiyyəti yoxdur".

**E.Musayev bu kimi hallara qarşı etiraz səslərini qaldıranların adlarını çəkdi:** "Məgər, Zahid Orucun ailəsi ailə deyil, məgər, Qüdrət Həsənquliyevin ailəsi ailə deyil, məgər, Siyavuş Novruzovun ailəsi ailə deyil? Onlar belələrinə qarşı hər gün mübarizə aparırlar, söyüşlərə, təhqirlərə baxmayaraq, sözlərini deyirlər. Amma məmurların çoxundan yenə səs yoxdur".

**Deputat ardınca təhqirlərə, söyüşlərə əl atan şəxslərə bağlı cinayət işlərinin qaldırılmamasına da etirazını bildirdi:** "Niyə onlar haqqında cinayət işləri başlanmayıb, prokurorluq orqanları nəyi gözləyirlər? Əgər belələrinə qarşı ciddi tədbirlər görülməsə, yeni Eldar Mahmudovlar, yeni "Quska"lar hələ çox olacaq".

**Deputat Siyavuş Novruzov** təkrar söz alıb bu mövzuda danışsa da, vaxt bitdiyindən fikirlərini tam çatdıra bilmədi. Əlavə vaxt istədikdə, spiker "vaxt çatmır e sənə"- deyə, zarafat etdi. S.Novruzov isə gülərək "vaxt çatsaydı, Məhəmməd Füzuli söz haqqında qəzəl yazmazdı ki"-cavabını verdi.

"Qəbiristanlıq yerlərinin satılması, yaxud o yerlərin kiməsə verilməsi halında başqa qurumlar bu vəsaiti götürürlər. Amma qorunma, saxlanma bələdiyyənin üzərinə qoyulur".

Bu fikirləri isə **deputat Fazil Mustafa** Milli Məclisdə İnzibati Xətalar Məcəlləsinə dəyişikliklərin müzakirəsi zamanı söylədi. O bildirdi ki, əslində bu məsələlər bələdiyyələrə verilməlidir: "İmkan yaradılmalıdır ki, torpağı da onlar versin, yeri də onlar ayırsın. Bələdiyyələr öz ərazisində bir sıra funksiyaları həyata keçirmək imkanı verilməlidir". F.Mustafa dedi ki, faktiki olaraq bələdiyyələr fəaliyyətsiz quruma çevrilib: "Normal büdcəsi olan bələdiyyəmiz yoxdur".

**Deputat İlham Əliyev** də bələdiyyələrin durumuna diqqət çəkdi: "Kənd bələdiyyələrinin doğrudan da maliyyəsi yoxdur. Maliyyə olmadığı halda indi onları yükləmək düzgün deyil".

Qeyd edək ki, qanun layihəsində imkansız ailələrin yas mərasimlərinin bələdiyyələr tərəfindən təşkili məsələsi nəzərdə tutulurdu. Deputat bildirdi ki, dəfn xərclərini layihədə saxlamaq olar: "Amma yas mərasimlərini təşkil etmək əlavə xərclər təşkil edir".

"Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" qanunda dəyişikliklər edilməsi barədə danışan **deputat Fərəc Quliyev** soyadların dəyişdirilməsi zərurətindən danışdı: "Yeni nəsil şəxsiyyət vəsiqələrində mütləq yeni soyadlarla çıxış etmək lazımdır. İndi nə Stalin, nə də Lenin var. Hər şey öz iradəmizdən asılıdır".

**Deputat Aqil Abbas** isə həmkarının fikirlərinə qarşı çıxdı: "İnsanların soyadlarını məcburi qaydada dəyişdirmək olmaz. Bu, yavaş-yavaş ola bilər. Ancaq məcburi şəkildə yox. Çünki demokratik bir ölkədə belə bir şey ola bilməz".

Spiker bundan sonra üzünü **komitə sədri Əli Hüseynli**yə tutaraq sual etdi: "Əli müəllim, cavab vermək istəyirsiniz? Deyəcəksiniz ki, bəs Fərəc Quliyev özü niyə soyadını dəyişməyib?"

**Deputat Fəzail Ağamalı** Bakıda baş verən dəhşətli avtobus qəzasına diqqət çəkərək dedi ki, sərnişin daşıması ilə məşğul olan şirkətlərə ciddi nəzarət olunmalıdır : "Bu, ilk belə hadisə deyil və bənzər olaylar bir neçə dəfə baş verib. Bakının küçələrində şütüyən avtobuslar kifayət qədər ciddi problemlər yaradır. Ümidvaram ki, belə hadisənin səbəbkarı olan sürücü cəzasını alacaq. Amma həmin sürücüləri işə qəbul edən, ictimai nəqliyyatı tənzimləyən və belə bir səlahiyyəti olan özəl şirkətlərə hər hansı bir cəza tətbiq olunmur". Deputat bildirdi ki, bəzi avtobuslarda gediş haqqı kartla ödənildiyi halda, bir çoxlarında bu tətbiq olunmadığı üçün ciddi problemlər yaranır.

F.Ağamalı təklif etdi ki, gələcəkdə həmin sürücüləri işə cəlb edən, onların üzərində yetərincə nəzarət funksiyasını yerinə yetirməyən şirkətlərin də məsuliyyətini artırmaq üçün Cinayət və İnzibati Xətalar Məcəllələrinə konkret əlavələr olunmalıdır.

Deputat avtobuslarda kart sisteminə keçidin sürətləndirilməsi üçün hökumətə də müraciət etdi.

İclasın gedişində deputatlar bir sıra məsələləri, o cümlədən "İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda müzakirə etdilər.

**Deputat Qənirə Paşayeva** ipotekadan yararlana bilməyən müəllimlər barədə danışdı: "20 ilə yaxın və ondan çox iş stajı olan müəllimlərin güzəştli ipotekadan güzəştli qaydada istifadə edən qruplara daxil edilməsi müəllimlər üçün əsl bayram hədiyyəsi, təbriki ola bilər".

İclasda "Pasportlar haqqında" qanuna dəyişikliyi nəzərdə tutan qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı.

**Deputat Qüdrət Həsənquliyev** MSK üzvlərinə diplomatik pasportların verilməsini zəruri saydı və bununla əlaqədar spikerə müraciət etdi. Bildirdi ki, millət vəkillərinə diplomatik pasportlar verildiyi halda, deputatların səlahiyyətlərini, həmçinin prezident seçkilərinin nəticələrini təsdiqləyən qurum üzvlərinə diplomatik pasport verilməməsi normal görünmür.

**Deputat Elmira Axundova** isə təklif etdi ki, millət vəkillərinə verilən diplomatik pasportlar deputatların səlahiyyət müddəti bitəndən sonra da onlarda qalsın. "Məsələn, Türkiyədə millət vəkillərinə belə hüquq verilib, onlara hətta səlahiyyətləri bitəndən sonra da "sayın millət vəkilim" deyə, müraciət edirlər".

İnzibati Xətalar Məcəlləsinə dəyişiklik layihəsi də müzakirəyə çıxarıldı. Məcəlləyə qəbiristanlıqların idarə olunması qaydaları haqqında qanunvericiliyin pozulması barədə maddə əlavə olundu. Həmin maddəyə əsasən, dəfn barədə məlumatın dəfnlərin vahid reyestrində yerləşdirilməməsinə və ya vaxtında yerləşdirilməməsinə görə vəzifəli şəxslər 100 manatdan 300 manatadək məbləğdə cərimə edilirlər. Qəbiristanlıqların qorunması tələblərinin, habelə dəfnlərin təşkili zamanı sanitariya-gigiyena normalarının pozulmasına görə fiziki şəxslər 20 manatdan 50 manatadək məbləğdə, vəzifəli şəxslər 500 manatdan 1000 manatadək məbləğdə cərimə olunacaqlar. Bundan başqa, qəbir yerlərinin rezervasiyası tələblərinin pozulması, dəfnə icazə verilməyən ərazilərdə dəfnlərin həyata keçirilməsinə görə 500 manatdan 1000 manatadək məbləğdə cərimə tətbiq ediləcək.

**Layihə barədə çıxış edən Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirdi ki, müasir dövrdə çox ciddi xəstəliklər var:** "Elə xəstəliklər var ki, yoluxucudur, həmin xəstəlik üçün kimyəvi maddələrdən istifadə edilir. Həmin şəxslər vəfat edərkən elə yerdə dəfn edilməlidir ki, su qovşağından ən azı 300 metr aralı olsun. Yaxud qəbristanlıqlar məktəblərdən kənarda olmalıdır. Həmçinin qəbirlərlə əkin sahəsi arasında müəyyən qədər məsafə olmalıdır. Bəzən şahidi oluruq ki, ölüləri kim harada gəldi basdırır. Məktəbin, xəstəxananın, su hövzəsinin yaxınlığında bu işləri həyata keçirmək olmaz. Bu, çox təhlükəlidir"

**Layihə müzakirələrdən sonra qəbul edildi.**

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# "Sayın vəkil"in hörmətli sayılması

Samir SARI

**Deputat Elmira Axundova dünən Milli Məclisdə çıxış edərkən deyib ki, deputatlara verilən diplomatik pasportlar onların səlahiyyət müddəti bitəndən sonra da özlərində qalsın.**

Xanım deputat fikrini əsaslandırmaq üçün belə bir əlavə edib: "Məsələn, Türkiyədə millət vəkillərinə belə hüquq verilib, onlara hətta səlahiyyətləri bitəndən sonra da "sayın millət vəkilim" deyə müraciət edirlər".

Düz söhbətdir. Şəxsən özüm də görmüşəm ki, Anadolu türkləri keçmiş deputatlara elə deyirlər, hətta sabiq bələdiyyə sədrlərinə də "sayın başqanım" deyirlər. Bəzən, heç "sayın" da demirlər, eləcə "vəkilim", "başqanım" deyirlər.

ABŞ-da, bir çox Avropa ölkələrində də elədir. Adam bir dəfə prezident, qubernator, senator olur, ömrünün axırınacan qatıldığı məclislərdə onu keçmiş vəzifəsinin adını çəkərək təqdim edirlər. Məsələn, bu saat Barak Obamaya "cənab 44-cü prezident" deyə müraciət edirlər. Bu hesabla Corc Buşa "cənab 43-cü prezident", Bill Klintona isə "cənab 42-ci prezident" deyirlər. Tramp da "former", yəni indiki prezidentdir.

Amerikalılar bunu ona görə edirlər ki, o boyda vəzifələri tutmuş, milləti təmsil, dövləti idarə etmiş, xalqa xidmət göstərmiş adamlara hörmətlərini izhar eləsinlər. Çünki amerikalılar əmindirlər ki, seçilə-seçilə gəlib axırda dünyanın ən böyük vəzifələrini tutmuş adamlar o hörmətə layiqdirlər.

Siz heç hansısa ABŞ prezidentinin eks olduqdan sonra tutulub türməyə basıldığını görmüsünüz? Olmayıb. Hətta bəzi prezidentlər özlərini yaxşı aparmayanda ya onları impiçment edib işdən çıxardıblar, ya da gülləylə vurublar, amma işdən çıxandan sonra tutdurmayıblar. Olmaz. Dövlətin sütunları sarsılar.

Əslində böyük vəzifədən gedən şəxslərə böyük hörmət qoyulması ənənəsi başqa ölkələrdə, məsələn, İsraildə də var. Onlar da prezident, baş nazir olmuş şəxslərlə həmişə hörmət-izzətlə davranırlar. İntəhası, bu yaxınlarda İsraildə istisna bir hal olub. Eks-prezident Moşe Katsavı qadına sataşmaq üstündə həbs ediblər, "zon"dadır.

Elə ölkələr də var, heç gözləmirlər ki, adam ali vəzifədən çıxıb sabiq olsun, elə vəzifədə olduğu, cibində mandat gəzdirdiyi vaxt başına torba keçirib basırlar maşına, aparıb salırlar ağzıbirə. Başına belə işlər gəlmiş adama kim "hörmətli vəkilim" deyər?

Budur, Ermənistanda yaxın keçmişdə prezident, baş nazir və deputat olmuş adamların diplomatik pasportlarını əllərindən alıblar, indi onlar nəinki VİP zaldan keçib təyyarəyə minə bilmirlər, heç onları aeroportun binasına girməyə qoymurlar, deyirlər, birdən qaçarlar.

Niyə? Çünki onlar əsgər ailəsinə sataşıblarE (Əslində bu zarafatdır, məşhur filmdən yadımda qalıb). Ona görə ki, onlar vəzifədə olduqları vaxt pis işləyiblər, o üzdən indi, türkün sözü, "sayın" sayılmırlar.

Yəni əsas şərt də elə budur: yaxşı işləyəndə, xalqla dürüst olanda adama sonradan nə diplomatik pasport lazım olur, nə də kiminsə ona "sayın vəkilim" deməsinə gərək qalır. Eləcə, hamı xeyirdə-şərdə rast olanda qabağına yeriyib əl tutuşur, "filankəs müəllim" deyə müraciət edir.

Düzdür, bizdə vəzifədə olmuş adamların hamısına ucdantutma elə münasibət göstərilir, amma bu, üzdə elədir, bəzi adamlar 15 metr aralanandan sonra kimsə mütləq dodaqaltı mızıldanır: "Bu da bir kişi deyil, amma alçaqla elə görüşdünüz, sanki imam övliyasıdır". Araşdıranda isə məlum olur ki, vaxtilə həmin şəxsin keçmiş vəzifə adamına nəsə bir işi düşübmüş, amma o, həmin işi aşırmayıb, ona görə də indi adı "bu da bir kişi deyil" qrafasındadır.

Bu baxımdan ölkəmizdə müvafiq durum qəlizdir. Bizdə xalqın yarısı hazırkı deputatının kim olduğunu bilmir. Nəyə inanırsınız, onun haqqı, yalanım yoxdur, bunu özüm bir neçə dəfə sınamışam. Şəhərin ayrı-ayrı yaşayış massivlərindən gəlib şikayət edən adamlardan tez-tez soruşuram ki, deputatınız kimdir, çoxu tanımır.

Belədirsə, o cür deputatların səlahiyyət müddəti başa çatanda kim onlara "hörmətli deputat" deyəcək? Heç kim. Bəlkə də tanısalar, deyərlər, amma adamın deputat olub-olmadığını bilmirlərsə, necə desinlər?

**Hərçənd el içində hörmətli olub-olmamağın məsələyə dəxli yoxdur, qoy onların diplomatik pasportları ömürlük olsun. Qəti ziyanı yoxdur.**

# XİN-in yeni sözçüsü kimdir?

## Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri olan şəxslərin əksəriyyəti hazırda müxtəlif ölkələrdə səfir postunu tutublar

**Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Prezident Administrasiyasının xarici əlaqələr şöbəsinin rəhbərinin müavini vəzifəsinə təyin olunduqdan sonra onun yerinə Leyla Abdullayeva təyin olundu. İlk olaraq məlumat üçün qeyd edək ki, Leyla Abdullayeva 1981-ci ildə Bakıda anadan olub. Orta təhsilini Bakıda alıb və Bakı Dövlət Universitetinin beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsində beynəlxalq münasibətlər ixtisası üzrə bakalavr və magistr pillələrində təhsil alıb.**



Leyla Abdullayeva

2002-ci ildən etibarən Xarici İşlər Nazirliyində çalışır. Nazirlikdə çalışdığı müddətdə regional təhlükəsizlik, ölkəmizin regional təşkilatlarda iştirakı, xüsusilə də bu təşkilatlarla siyasi və təhlükəsizlik sahəsində əməkdaşlıq münasibətlərinə məsul olub. Azərbaycan Respublikasının NATO yanındakı Nümayəndəliyində və Azərbaycan Respublikasının Belçika Krallığındakı Səfirliyi və Avropa İttifaqı yanında Nümayəndəliyində diplomatik fəaliyyət göstərib. XİN-də bundan öncə Azərbaycanın Beynəlxalq İnkişafa Yardım Agentliyində (AİDA) direktor müavini vəzifəsində çalışıb.

*Bəs XİN-in bundan öncəki mətbuat xidməti rəhbərləri sonradan hansı vəzifələrə təyin olunublar?*

Yuxarıda qeyd etdiyimiz kimi **Leyla Abdullayeva**dan öncə XİN-in mətbuat xidmətinin rəhbəri vəzifəsində təmsil olunan **Hikmət Hacıyev** hazırda Prezident Administrasiyasının xarici əlaqələr şöbəsinin rəhbərinin müavinidir.

H.Hacıyev 1979-cu ildə Gəncədə anadan olub. BDU-nun beynəlxalq münasibətlər fakültəsinin məzunudur, habelə Belçikanın ULB universitetində təhsil alıb. O, həmçinin ABŞ-ın Stenford Universitetinin və Norveç Xarici İşlər Nazirliyinin Siyasi Araşdırmalar Universitetlərinin məzunudur.

2000-ci ildən XİN-də işləyirdi. 2014-cü ildə nazirliyin mətbuat xidmətinin rəhbəri təyin olunmuşdu. Ondan fərqli olaraq daha öncə XİN-də mətbuat xidmətinin rəhbəri vəzifəsində təmsil olunan əksər diplomatlar, hazırda xarici ölkələrdə səfir postunu tutublar.

Hikmət Hacıyevdən öncə bu vəzifəni tutan **Elman Abdullayev** 1976-cı ildə Gəncədə anadan olub. Gəncə şəhər 14 saylı orta məktəbi bitirib, ali təhsilini Misirin Qahirə Universitetində alıb. Magistr dərəcəsinə ABŞ-ın Kaliforniya Dövlət Universitetində yiyələnib.

1999-cu ildən Azərbaycan XİN-də işləyirdi, Yaxın Şərq idarəsində, Azərbaycanın Avropa İttifaqındakı nümayəndəliyində xidmət edib, Los-Ancelesdəki Baş konsulluğunda konsul vəzifəsində çalışıb.

18 sentyabr 2014-cü il tarixində Azərbaycan Respublikasının Efiopiya Federativ Demokratik Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

2000-ci illərin əvvəllərində XİN-in mətbuat əlaqələndiricisi olan **Mətin Mirzə** 2006-cı ildə mətbuat xidmətindən gedəndən sonra XİN-də digər vəzifələrdə çalışıb. 2008-2011-ci illərdə Azərbaycanın İndoneziyadakı səfirliyində müşavir işləyib.

2013-cü ilin sentyabrında isə Mətin Mirzə Azərbaycanın Çindəki səfirliyinə müşavir vəzifəsinə göndərilib.

XİN-in mətbuat katiblərindən **Tahir Tağızadə** 2007-ci ildə Azərbaycanın Çexiyadakı səfir postuna təyinat alıb, 2014-cü ildə isə Böyük Britaniyaya səfir göndərilib.

2007-ci ildən mətbuat xidmətinə rəhbərlik etməyə başlayan **Xəzər İbrahim** isə 2009-cu ildə Azərbaycanın ABŞ-dakı səfirliyinə müşavir vəzifəsinə göndərilib, ardınca isə 2011-ci ildə Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilib. Hazırda isə Azərbaycanın Türkiyədəki səlahiyyətli səfiridir.

2009-cu ildən XİN mətbuat xidmətinin rəhbəri postuna gətirilən **Elxan Poluxov** da sonradan səfir vəzifəsinə yüksəlib. Belə ki, iki il sonra yəni 2011-ci ildə ölkə prezidentinin sərəncamı ilə o, Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Türkiyə və Almaniya arasında soyuq münasibətlər uzun çəkməyəcək"

## Politoloq: "İki ölkənin xarici işlər nazirlərinin bu ilin sonuna planlaşdırılan görüşü də münasibətlərə əlavə stimul verə bilər"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Almaniya səfəri iki ölkə arasında xeyli müddətdən bəri davam edən gərgin münasibəti az da olsa yumşaldıb. Qarşıdakı həftələrdə münasibətlərin yaxşılaşıb-yaxşılaşmayacağını daha əminliklə söyləmək mümkün olacaq.**

Bu barədə "Yeni Müsavat"ın "Türkiyə-Almaniya münasibətləri bir zamanlar mövcud olan yaxın tərəfdaşlıq münasibətləri səviyyəsinə çata biləcəkmk" sualına cavabında **siyasi ekspert Yeganə Hacıyeva** bildirib. Almaniyanın Türkiyənin ən böyük xarici iqtisadi tərəfdaşı olduğunu bildirən Y.Hacıyeva qeyd etdi ki, Almaniyaya ixrac olunan məhsullar Türkiyənin ixracatının təxminən 10 faizini təşkil edir və bu, ildə 14 milyard avro dəyərindədir. Almaniya həmçinin Türkiyə üçün Avropa Birliyinə ticarət qapısı rolunu oynayan bir ölkədir və Türkiyədə fəaliyyət göstərən 6 min müştərək türk-alman şirkətləri vasitəsi ilə maliyyə, ticarət və sənayenin müxtəlif sahələri üzrə ticari əlaqələr aparmaqdadır: "Türkiyə NATO-ya üzv ölkələr arasında alman silahlarının əsas idxalçısı olan ölkələrdəndir. Lakin qarşılıqlı ticarətin bu sahəsində münasibətlər son illər kənar təsirlərdən kəskin geriləmişdir. Bir neçə ildir artıq Türkiyə və Almaniya arasında soyuq küləklər əsməkdədir. Münasibətlərin soyumasında rol oynayan faktorlar haqqında danışarkən, ən birincisi Al-



Yeganə Hacıyeva

maniyanın Türkiyədəki separatizm ocaqlarının siyasi qollarının Avropada himayəçisi rolunu oynayan ölkələrdən biri olmasıdır. Bu istiqamətdə fəaliyyətinə görə Almaniya Hollandiyadan sonra ikinci ölkədir. Baxmayaraq ki, bu fəaliyyət bir başa Almaniya dövlətinin siyasəti deyil, lakin qanunverici və xarici siyasətin formalaşdıran qurumlarda təşəkkül tapmış lobbi qruplarının təsiri altındakı siyasi qruplar Almaniyanın tarixən ənənəvi tərəfdaşı olan Türkiyənin əleyhinə Avropa qurumlarında, Avropa Parlamentində kifayət qədər iş aparırlar. Qeyd etmək lazımdır ki məhz bu qüvvələrin fəaliyyəti nəticəsində son illərdə Türkiyəyə silah satışında 3 dəfə azalma olub. 2016-cı ilin iyun ayında Almaniya Federal Məclisinin 1915-ci il hadisələrini "soyqırım" kimi xarakterizə edən qanun layihəsini qəbul etməsi isə artan xətt üzrə gərginləşən münasibətləri daha da gərginləşdirdi.

Əlbəttə, Almaniya və Türkiyə arasında soyuq münasibətlər uzun müddət soyuq davam etməyəcək və edə bilməz. Prezident Ərdoğanın ötən həftə reallaşan Almaniya səfəri də bunu deməyə əsas verir. Münasibətlərin bir zamanlar mövcud olan sıx tərəfdaşlıq, dostluq münasibətləri səviyyəsinə qayıtması üçün tərəflərin qarşılıqlı kompromis yanaşma sərgiləməsi vacibdir. Hər iki ölkənin xarici işlər nazirlərinin bu ilin sonuna planlaşdırılan görüşü də münasibətlərə əlavə stimul verə bilər".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Hollandiyada QRU zabitləri ifşa edildi - beynəlxalq qalmaqal

## Rusiyanın Baş Kəşfiyyat İdarəsinin ələ keçən zabitləri Haaqada yerləşən Kimyəvi Silahların Qadağan olunması Təşkilatının (OPCW) kompüter şəbəkəsinə kiber hücum etməyi planlaşdırırmış; "Skripal işi" skandalının ən qızğın vaxtında daha bir "agent ovu" Rusiyanı pis vəziyyətə salıb

**Son zamanlar müxtəlif Avropa ölkələrində və ABŞ-da QRU-nun fəaliyyəti ilə bağlı araşdırmalar aparılır və yeni-yeni faktlar ictimailəşdirilir. Belə ki, artıq bəzi Avropa ölkələrində Rusiya xüsusi xidmət orqanlarının agentləri ifşa edilib. Onların əməliyyatlar zamanı istifadə etdikləri texniki təchizat məmulatları, həmçinin avtomobillər müsadirə edilərək götürülüb.**

Xatırladaq ki, "Yeni Müsavat" qəzetində və Musavat.com saytında hazırda Niderland Krallığında yaşayan azərbaycanlı Orduxan Bəbirovun QRU agenti olması haqda silsilə yazılar gedib. "Kentavr"ın (Orduxan Bəbirov) da imkanlarından istifadə olunması istisna edilmir. Yəqin ki Niderland dövlətinin aidiyyəti orqanları bu məsələyə də aydınlıq gətirəcəklər.

"Yeni Müsavat" Hollandiyada beynəlxalq qalmaqal yaradacaq "agent ovu" haqda araşdırma məqaləni təqdim edir. Məqalə xarici mediada çıxan məqalə və faktlar əsasında hazırlanıb.

***

İki gün öncə - oktyabr ayının 4-də Hollandiyanın Hərbi Kəşfiyyat və Təhlükəsizlik Xidməti (MIVD) və Birləşmiş Krallıq Ədliyyə Nazirliyi tərəfindən Rusiya Silahlı Qüvvələrinin Baş Qərargahının Baş Kəşfiyyat İdarəsinin (BKİ-QRU) kiber hücum bölməsinin zabitləri hesab edilən Rusiya Federasiyasının 4 vətəndaşı barədə məlumat açıqlanıb. Məlumata əsasən, həmin 4 nəfər şəxs Haaqada yerləşən Kimyəvi Silahların Qadağan olunması Təşkilatının (OPCW) kompüter şəbəkəsinə kiber hücum etmək məqsədilə 2018-ci ilin aprel ayında Hollandiyaya yerləşiblər. Bu dörd nəfər Hollandiyaya diplomatik pasportlarla gəlib. Pasportlardan ikisinin nömrələrinin ardıcıl olması diqqət çəkib.

Hollandiyanın hüquq-mühafizə orqanlarının açıqlamasından sonra, "Bellingcat" təşkilatı və onun Rusiya tədqiqatı üzrə tərəfdaşı olan "The İnsider" media qurumu sözügedən şəxslər haqqında məlumat əldə etmək və onların şəxsiyyətini tam müəyyənləşdirmək istiqamətində fəaliyyət başlayıb. "Bellingcat" 2002-ci ildən 2014-cü ilədək müxtəlif məlumat bazalarını müqayisə edərək Skripalın zəhərlənmə işində iştirak edən Baş Kəşfiyyat İdarəsinin (BKİ) zabitlərindən fərqli olaraq, bu insanların şəxsiyyətinin həqiqi olduğunu təsdiqləməyə müvəffəq olub.







Hollandiyada ələ keçirilən QRU zabitlərinin istifadə etdikləri avtomobil

### BKİ akademiyasında qeydiyyat yeri

Məlumatlar göstərir ki, təqsirləndirilən şəxs - Aleksey Minin Rusiya Müdafiə Nazirliyinə aid olan Hərbi Akademiyanın Moskva şəhərində yerləşdiyi "Narodnogo Opolcheniya 50" küçəsindəki ünvanda yaşayış üzrə qeydiyyatdadır.

"Reuters" xəbər agentliyinin məlumatına görə, ABŞ hökuməti tərəfindən bir neçə ölkədə kiber hücumlar həyata keçirilməsi ilə əlaqədar təqsirləndirilən Rusiya Federasiyası vətəndaşından birinin Rusiya Silahlı Qüvvələrinin Baş Qərargahının Baş Kəşfiyyat İdarəsinin (QRU) Moskvada yerləşən hərbi hissəsinin yerləşdiyi ünvanda yaşayış yeri üzrə qeydiyyatda olduğu müəyyənləşdirilib. Belə ki, ABŞ tərəfindən cümə axşamı günü (4 oktyabr 2018-ci il) açıqlanan ittiham aktında İsveçrədəki beynəlxalq idman orqanlarının və Hollandiyadakı Kimyəvi Silah Nəzarətçilərinin kompüter şəbəkələrinə kiber hücumda ittiham olunan Aleksey Moreneçin adı qeyd edilib.

RF-nin rəsmi məlumat bazasına araşdırma aparmış şəxsə (adı açıqlanmır) əsasən, A.Moreneç Moskva şəhərinin "Komsomolski" prospektindəki yerləşən binada həm nəqliyyat, həm də yaşayış yeri üzrə qeydiyyatdadır. ABŞ hökumətinin iddianaməsinə görə, həmin ünvan BKİ-nin 26165 saylı hərbi hissəsinə məxsusdur. Həmçinin, avtomobillərin qeydiyyatı üzrə məlumat bazasına əsasən, 2000-2005-ci illərdə Moreneç həmin hərbi hissəyə məxsus olan, Rusiya istehsallı "VAZ 21093" markalı avtomobilinin sahibi kimi qeydiyyatdan keçib.

Moskva ünvanında qeydiyyatdan keçmiş Aleksey Moreneçin adı, soyadı və doğum tarixi kimi müəyyənedici məlumatlar Hollandiyalı hüquq-mühafizə orqanları tərəfindən Haaqa şəhərində yerləşən Kimyəvi Silahların Qadağan Olunmasına Dair Təşkilatın şəbəkəsinə kiber hücumda təqsirləndirilən RF vətəndaşının pasport detalları ilə tamamilə uyğun gəlir. Hollandiya və ABŞ səlahiyyətliləri ictimaiyyətə verdikləri rəsmi açıqlamada Moreneç və digər iddia edilən rusiyalı hakerlərin QRU-nun zabitləri olduğunu bildiriblər.

Təqsirləndirilən digər şəxs Aleksey Minin də Rusiya Müdafiə Nazirliyinə aid olan Hərbi Akademiyanın Moskva şəhərində yerləşdiyi "Narodnogo Opolcheniya" küçəsindəki ünvanda yaşayış üzrə qeydiyyatdadır. "Reuters" xəbər agentliyi bu şəxslərlə əlaqə saxlamağa cəhd etsə, bu, mümkün olmayıb. Həmçinin, xəbər agentliyinin əməkdaşları 26165 saylı hərbi hissəyə zəng ediblər. "Reuters"in əməkdaşına cavabda hərbi hissənin uzun müddətdir ki başqa ünvana köçürüldüyü bildirilib.

Hollandiyalı rəsmilərin sözlərinə görə, Hollandiyadan deportasiya edilməzdən əvvəl təqsirləndirilən RF vətəndaşının cibində tapılmış taksi mədaxil qəbzi həmin şəxsin BKİ ilə əlaqəli olmasına bir sübut kimi qiymətləndirilir. Belə ki, qəbzə əsasən cari ilin aprelin 10-da sözügedən şəxs Moskvada Şeremetyevo hava limanına 26165 saylı BKİ-nin hərbi hissəsinin arxasındakı "Nesvizkiy" küçəsindən gəldiyi göstərilir.

(https://www.reuters.com/article/us-britain-russia-cyber-address/address-of-russian-hacking-suspect-is-a-spy-agency-unit-records-show-idUSKCN1ME29E
ttps://www.reuters.com/article/us-britain-russia-cyber-address/address-of-russian-hacking-suspect-is-a-spy-agency-unit-records-show-idUSKCN1ME29E
"Address of Russian hacking suspect is a spy agency unit - records show")

### 305 zabit üçün 305 avtomobil

"Bellingcat" eyni ünvana qeydə alınmış digər nəqliyyat vasitələrini axtararaq 305 sürücünün siyahısını əldə edib. Qeydiyyatda olan şəxslər 27 ilə 53 yaş arasını əhatə edirlər. Həmin məlumat bazasında onların tam adları və pasport nömrələri, eləcə də əksər hallarda mobil telefon nömrələri mövcuddur.

Əgər "Bellingcat" tərəfindən aparılmış araşdırma zamanı müəyyən edilmiş sözügedən 305 nəfər həqiqətən QRU-nun 26165 saylı hərbi hissəsinin əməkdaşlarına aiddirsə, ictimaiyyətə açıq avtomobil qeydiyyat bazasında kəşfiyyat xidmətinin əməkdaşlarının tam şəxsi məlumatları mövcud olması son zamanlar qeydə alınmış məxfiçilik baxımdan ən böyük pozuntudur.

(https://www.bellingcat.com/news/2018/10/04/305-car-registrations-may-point-massive-gru-security-breach/
ttps://www.bellingcat.com/news/2018/10/04/305-car-registrations-may-point-massive-gru-security-breach/
305 Car Registrations May Point to Massive GRU Security Breach)

❑ **Musavat.com**

# Xərçəngin müalicəsi ilə bağlı iki alimə Nobel verilməsinə Bakıdan reaksiyalar

**Etibar Əliyev:** "Hesab olunur ki, 2050-ci ilədək ən yüksək inkişaf molekulyar biologiya sahəsində qeydə alınacaq"

**Seyfəddin Əsəd:** "Bu iki alimin nailiyyətləri barədə detallı məlumat yoxdur, amma görünür ki, nəticələr Nobel Komitəsini inandıracaq qədər ciddidir"

**Xərçəng xəstəliyinin müalicəsi dünya tibb elminin qarşısında duran əsas problemlərdən biridir. Buna görə də bu xəstəliyə qarşı mübarizədə önəmli uğur əldə etmiş iki alim tibb üzrə 2018-ci il Nobel mükafatının qalibi elan edilib. Bunlar xəstəliyin müalicəsində yenilik edən immunoloq alimlər James Allison (ABŞ) ve Tasuku Honsodur (Yaponiya) İsveç Nobel Komitəsinin açıqlamasında alimlərin kəşfinin xərçənglə mübarizədə yeni era açdığı qeyd edilir. Laureatların tədqiqatları insanın öz immun sisteminin xərçəng şişlərini yox etməyə yönəlmiş üsullara həsr olunub. Bu innovativ yanaşmanın xərçənglə mübarizədə əsas strategiyalardan biri olacağı təxmin edilir.**

Adətən bizim immun sistemimiz müstəqil şəkildə orqanizmdəki mutasiyaya məruz qalmış hüceyrələri tapır, çoxalmağa imkan vermədən onları parçalayır. Lakin xərçəng hüceyrələri bu təbii müdafiəni yarmağın yolunu tapa biliblər. Nəticədə şişlər sürətlə böyüməyə başlayır.

Allison və Honso isə xərçəng hüceyrələrini "aldadaraq" onların immun reaksiyanı bloklamasına imkan verməməyin yolunu öyrəniblər. Bu, müalicədə əsl inqilab yaradaraq yeni nəsil dərman preparatlarının əsasını təşkil edib.

Həmin dərman preparatlarının yan təsirləri az olmasa da, onlar onkologiya ilə mübarizədə effektivliklərini sübut ediblər. Bəzən əvvəllər müalicəsi mümkün olmayan xərçəngin son mərhələsində olan xəstələri də artıq sağaltmaq mümkün olur.



Xərçənglə mübarizədə xəstələrin öz immunitetlərini səfərbər etməklə bağlı fikrə alimlər hələ 100 il əvvəl gəliblər. Ancaq 1990-cı illərdə bu sahədə əsl sıçrayış edilib.

Amerikalı Allison bizim immunitetimizi ləngidən təbii mexanizmi, immun nəzarət nöqtələrini kəşf etdi ki, bu mexanizmlə yad və mutasiyalaşan hüceyrələri tanıyan və onları məhv edən T-limfositlərini "sakitləşdirmək" mümkün olur. Əgər bu mexanizm pozulursa, orqanizm öz-özünü məhv etməyə başlayır. Yad və mutasiyalaşan hüceyrələrlə yanaşı, orqanizmin sağlam toxumaları da məhvə məhkum olur.

Allison xərçəngə yoluxdurulan siçanlar üzərində təbii "tormoz" mexanizmini söndürərək inanılmaz nəticələr əldə edib. Şiş hüceyrələri daha immunitetdən gizlənə bilmirlər və orqanizm xərçənglə daha effektiv mübarizə aparmağa başlayır.

Buna paralel olaraq 1992-ci ildə Tasuku Honso eyni prinsiplə çalışaraq immun nəzarət nöqtələrininin başqa növünü kəşf edib. Yapon professor da öz kəşfində bir neçə immunoterapiya metodunu işləyib hazırlayıb.

Hazırda həmin alimlərin təklif etdikləri metod əsasında hazırlanan preparatlar xərçəng xəstəliklərinin müalicəsində uğurla tətbiq edilir. Lakin bir çox dərmanlar hazırda kliniki sınaqdan keçdikləri üçün yaxın illərdə əlçatan olacaqlar.

**Ekspert Etibar Əliyev** bildirir ki, artıq ikinci dəfədir ki, Nobel Tibb mükafatı xərçəngin müalicəsi sahəsində uğur qazanan alimlərə verilir: "2015-ci ildə də türk əsilli professor Əziz Sancar və iki digər alim DNK-nın bərpası sahəsindəki uğurlarına görə Nobel Kimya mükafatı almışdılar. Xüsusilə Ə.Sancarın kəşf etdiyi ferment DNK-nın bərpasında mühüm rol oynayır. Ümumiyyətlə, hesab olunur ki, 2050-ci ilədək ən yüksək inkişaf molekulyar biologiya sahəsində qeydə alınacaq. Bu elmin son nailiyyətlərinin əksəriyyəti xərçənglə mübarizəyə dairdir. Son Nobelçilərin də ixtiraları bu istiqamətlidir".

**Tanınmış terapevt-həkim Seyfəddin Əsəd** bildirir ki, xərçəng xəstəliyi dünyanın ən böyük bəlasıdır deyə, onunla mübarizə sahəsində ən kiçik uğur belə ciddi addım hesab olunur, mükafatlandırılır: "Bu iki alimin nailiyyətləri barədə detallı məlumat yoxdur, amma görünür ki, nəticələr Nobel Komitəsini inandıracaq qədər ciddidir".

Həkimə görə, insanın immun sistemi bütün xəstəliklərin qarşısını almağa qadirdir: "Burada əsas amil immun sisteminin zəifləməsinə imkan verməməkdir. Bu isə hər bir insanın qidalanmasından çox asılıdır. Xərçəngin inkişafında zülal mühüm rol oynayır. İnsan zülal qəbul etməyəndə orqanizm xərçəng hüceyrlərini "yeyir". Bu gün müxtəlif təbii üsullarla xərçəngə qarşı mübarizədə böyük uğurlar əldə olunub. Bu uğurlarda qidalanma və həyat tərzi mühüm rol oynayır. Sağlam qidalanma, hərəkətli həyat tərzi orqanizmi bu xəstəlikdən qoruyur. Uzunmüddətli həkimlik təcrübəsində bunu hər zaman görürəm ki, sağlam qidalanan, hərəkətli həyat tərzi keçirən insanlarda xərçəng olmur".

❑ **DÜNYA, "Yeni Müsavat"**



# Liftdə beş arvad saxlamağın çətinliyi haqda

Zamin HACI
zaminhaci@gmail.com

"Əlimdə olsaydı əgər iqtidar
Bu köhnə fələyi kökündən yıxar,
Təzədən elə bir fələk qurardım
Ki, hər kəs yaşardı azad, bəxtiyar".

*(Ömər Xəyyam)*

**Deputatlardan biri idarədə çıxış edərkən sovetdən qalma soyadlarının dəyişdirilməsinin vacibliyindən qırıldatmışdır. Bu zaman spiker Oqtay müəllim çox yerində şərh vermişdir: "Öz soyadını niyə dəyişdirmirsən?". Mükəmməl cavabdır, çünki bu təklifi verən deputat Quliyev soyadını daşıyırmış. Hətta spikerə yersiz, bivaxt hörmətimin yarandığını bildirirəm.**

Bivaxt ona görə ki, hazırda deputatxana seçkiləri yaxınlaşmır. Açığı, heç bilmirəm o seçki haçan olacaqdır və bəlkə bizdən uzaqlaşır? Ona qalsa arada idarədə hansısa deputat ölür, hansısa deputat xaricə qaçır, nə bilim, icra başçısı qoyulur, lakin onların yerinə heç bir seçki keçirilmir. Nəticədə neçə dənə rayonumuz bu saat deputatsız qalaraq qanunvericiliyə öz töhfəsini vermir. Deputatsız rayon, sarımsaqsız xaş - atalar demişkən. Xaşı xüsusi yazdım, bu saat sezonudur, görün neyləyirsiniz. Yeri gəlmişkən, xaş rus müxalifətçi Navalnı bəyin də sevimli yeməyi imiş. Təzəlikcə arvadının intervüsündə oxudum, deyir, Lyoşa (yani Aleksey müəllim) hər dəfə türmədən çıxanda xahiş edir ona xaş bişirim. Navalnı bu dəqiqə də Putinin türməsindədir, bizim müxalifət liderlərindən uzaq, tfu-tfu...

Qaldı spikerə hörmətimin yersizliyi, bu da bilavasitə seçkilərlə əlaqədardır, çünki Oqtay müəllimin mənim yaşamağa cəhd elədiyim Binəqədi dairəsindən namizəd olması ehtimalı sıfıra bərabərdir, hətta bəlkə mənfi bir-iki zad olar. Çün, bu dairəni uzun illərdir Madər müəllim icarəyə götürübdür, yaxın minillikdə ondan başqasına biz qətiyyən səs verməyəcəyik! Ya Qarabağ, ya ölüm! Yox, bu, ayrı yazının şüarı idi, yanlış düşdü, bu yerini oxumayın. Yəni yersiz deyərkən burada ərazi nəzərdə tutulur.

Ümumiyyətlə, spikerin o cavabı bizim bütün həyati proseslərimizə işıq salan bir cavabdır. Kaş hamı məsələyə o cür yanaşaydı. Yoxsa baxırsan biri Qaradağdan o yana keçməyib, lakin orda-burda şüar qışqırır: "Müharibə başlamalıdır!" Necə deyərlər, gəlin yığışaq, gedin vuruşun. Bunun bariz örnəyi bir rəhmətlik telekanalizasiyada şüar formasında az qala hava xəbərlərində də verilirdi: "Döyüş alnınıza yazılıb". Yəni sizin alnınıza. Bizimkinə pul-para, yeyib-içmək, alver-filan yazılıb. Camaat səbəbini soruşanda da deyirdilər bu dini kitabdan sitatdır, bizlik deyil. Əlbəttə. Hərənin öz dini, hərənin bir kitabı vardır. Nə isə, bu boyat temadır, çox dərinə getməyin mənası da qalmamışdır.

Bu mənada lift remontu idarəsinin işdən çıxarılan müdirinin məşhur qızı - yazıq uşaq cəmi 400 min manatlıq toyla dilə-dişə düşmüşdü - olduqca haqlı yanaşma irəli sürübdür. Deyir, mənim atam bəziləri kimi 5 arvad saxlamırdı. Korrupsiya ittihamına cavab olaraq belə deyibdir. Məntiqlə belə çıxır 5 arvad saxlamaq korrupsiyanın bir növüdür. Eyni zamanda, lift işçisi 5 arvadı daşımağa gərək enli lift alaydı, ya da remont edib, lifti genişləndirəydi. Camaat on altıncı mərtəbədəki evinə balkondan artırma edə bilirsə, niyə liftin böyrünü enlətmək olmasın? Bizim memarlıqda hər şey mümkündür. Dövlət Arxitektura və Şəhərsalma Komitəsinin bir məsul işçisini tanıyırdım, özünə qanunsuz ev tikmişdi.

**Özünə rəva bilmədiyini, başqalarına rəva bilmə - bu qızıl qayda neçə min illərdir bəşəriyyət üçün yol xəritəsi sayılmağa layiqdir. Kaş hamı bu prinsiplə yaşayardı, o zaman dünyada problemlər bəlkə yox olmuşdu. Əks halda, həmişə lift qırılacaq, avtobuslar toqquşacaq, tıxac olacaq, məktəb savadsızlıq, əsgərlik qorxaqlıq, jurnalist yaltaqlıq öyrədəcəkdir.**



# Ermənistanda siyasi böhran, rus "barmağı" və Bakının səbri

## Düşmən ölkədə gedən proseslər onun daxili işi olmaqdan çıxır; fransız nəşri: "Azərbaycan və Türkiyə kimi düşmənlər arasında sıxılan Ermənistan..."

**Ermənistanda daxili ictimai-siyasi gərginlik getdikcə artır. Ötən çərşənbə axşamı parlamentdəki çoxluq - eks-prezident Serj Sərkisyanın Respublika Partiyası timsalında indiki müxalifət əks-inqilab cəhdi edib revanş götürmək istəsə də, bu, baş tutmadı. Reqlament haqda ikinci oxunuşda qəbul edilən qanun layihəsi baş nazir Nikol Paşinyanın əl-qolunu bağladığı və onu konstitusiya dalanına saldığı üçün, baş nazirin xalqı parlament önünə çağıraraq, parlamentdəki müxalifətə təzyiq eləməkdən savayı yolu qalmadı.**

**Lakin hələ ki növbədənkənar seçkilər məsələsində yeni iqtidarla köhnə iqtidar arasında konsensus baş tutmayıb. Parlamentdəki köhnə çoxluq qanunverici orqanın tezliklə buraxılması və seçkilərin bu ilin dekabrında keçirilməsi ilə bağlı Paşinyanın təklifini yaxına buraxmır. Sərkisyanın parlament bloku və daşnaklar seçkilərin ən yaxşı halda gələn ilin may-iyununda (Respublika Partiyası hətta 2020-ci ildə təkid edir) keçirilməsinə razıdır.**

Anlaşılandır. Paşinyanın əsas siyasi opponentləri əmindirlər ki, həmin vaxta kimi təzə hökumətin ictimai dayaqları, baş nazirin populyarlığı zəifləyəcək. Şübhəsiz ki, seçkilərin vaxtının uzanması həmçinin Rusiyaya da Ermənistandakı dayaqlarını gücləndirmək şansı verəcək. Bu ilin sonunadək erkən parlament seçkilərinin baş tutması isə köhnə rejimin qalıqlarının siyasi meydandan tamamən təmizlənməsi demək olardı. Çünki Paşinyanın reytinqi yüksək olaraq qalır. Bunu ötən ayın sonlarında İrəvan merliyinə seçkilər də təsdiqlədi.

Təbii ki, əsas rəqiblərinin hədəflərindən Paşinyan yaxşı xəbərdardır. Odur ki, baş nazir tələsir. Bəs bu tələskənlik nə verəcək? 8 may inqilabından başlayan hakimiyyət dəyişikliyi məntiqi sonluğa çatacaqmı, yoxsa düşmən ölkədə növbəti daxili çaxnaşmanın şahidi olacağıq?

Unutmayaq ki, müxalifətə keçmiş Qarabağ klanının öhdəsində hələ mühüm maliyyə rıçaqları var və arxasında Rusiyanı hiss edir. Əks-inqilabçıların başqa bir təzyiq "kartı" Qarabağdır. Bu yerdə yada salaq ki, Dağlıq Qarabağdakı separatçı rejimin başçısı Bako Saakyan da Rusiyanın adamlıdır və Qarabağ klanına bağlıdır.

*****

"Ermənistanda mahiyyət etibarilə köhnə və yeni hakimiyyət arasında legitimlik uğrunda mübarizə gedir". "Yeni Müsavat"ın erməni qaynağına istinadən verdiyi xəbərə görə, bunu Avropa yaşayan erməni ekspert Riçard Kirokosyan deyib. Onun sözlərinə görə, Nikol Paşinyan hökuməti üçün legitimlik "xalq mandatından" qaynaqlanır.

"Bu "mandat" da onun populyarlığını və təşkil elədiyi küçə etirazlarının gücünü müəyyən edir. Korrupsiya və saxta seçkilərə görə özünü gözdən salmış və ictimai dəstəyini itirmiş keçmiş elitanın legitimliyi isə parlament üzərində nəzarətə əsaslanan demokratiya imitasiyası üzərində qurulub - bu, getdikcə seçicilərin ovqatına daha çox uyğun gəlməsə də", - deyə erməni təhlilçi qeyd edib.

Erməni analitikin sözlərinə görə, bununla belə, hazırkı mürəkkəb situasiyaya baxmayaraq, Ermənistandakı yeni siyasi reallıq geridönməz xarakter daşıyır. "Əvvəlki hökumət və ona yaxın partiyalar getdikcə daha çox "keçmiş" termininə uyğun gəlir. Onlar hər bir addımları ilə o cizgiyə yaxınlaşırlar ki, ondan sonra onlar haqqında ölkənin siyasi tarixində yalnız xatirələr qalacaq" - Kirokosyan əlavə edib.

*****

"Hərçənd indiki böhran erməni-erməni böhranıdır, amma yenə burada Rusiya barmağı görünür". "Yeni Müsavat"ın məlumatına görə, bunu isə Fransanın "Le Fiqaro" nəşrində jurnalist Reji Jente yazıb.

Məqalədə daha sonra deyilir: "Aprelin sonunda bu balaca Qafqaz respublikasında, Azərbaycan və Türkiyə kimi düşmənlər arasında sıxılan Ermənistanda özünün təhlükəsizliyini təmin edən Moskva təkid edirdi ki, konstitusiyaya əməl olunsun və yeni hökumət parlamentlə əməkdaşlıq eləsin. "Ruslar Ukraynadakı səhvlərini anladılar və bizim inqilaba qarşı ikrahını reklam eləmədi. Ancaq mahiyyət etibarilə onlar Paşinyanı sevmirlər və onu məcbur edirlər ki, satqın parlamentlə əməkdaşlıq eləsin. Ümid edirlər ki, Paşinyan yeni parlamenti formalaşdıra bilməyəcək və zaman ötdükcə xalqın dəstəyini itirəcək", - deyə Paşinyana yaxın şəxslərdən biri fransız nəşrinə bildirib.

Nəşr sonda yazıb: "Çərşənbə axşamı Paşinyan aprel-may ayındakı kimi xalqa hesabat verdi. Məxsusən eks-prezident Serj Sərkisyan üçün hazırlanan konstitusiya ona az hərəkət imkanı verir. Məsələn, istefaya getmək və parlamentdən öz yerinə yeni baş nazir təyin edilməyəcəyi barədə vəd almaq - hansı ki, avtomatik surətdə növbədənkənar parlament seçkilərin keçirilməsinə gətirəcək - qeyri-müəyyən nəticələri ilə birgə riskli bir təklifdir. Bu, elə deputatlara deməkdir ki, siyasi özünüqəsdə razılıq versinlər. "Mən istefa verdiyin gündən siyasi hadisələrin inkişafının müşahidə edilməsi sizin nəzarətiniz altında gedədək" - Paşinyan bəyan edib".

Aydın məsələdir ki, parlamentdəki çoxluq siyasi intihara heç vaxt razı olmayacaq. Yəni indiki parlamentin ömrünü maksimum uzatmağa çalışacaq. Odur ki, Nikol Paşinyan qarşısında heç də asan məsələ dayanmır...

*****

Sözsüz ki, Ermənistandakı proseslər birbaşa və dolayısıyla Qarabağ məsələsinə də toxunduğundan, Azərbaycan oradakı prosesləri diqqətlə izləyir. Azərbaycan və Ermənistan rəhbərləri arasında Düşənbədə əldə olunan şifahi anlaşma göstərdi ki, rəsmi Bakı hələ ki düşmən ölkədə legitimlik probleminin maksimum qısa zamanda həlli və yeni hakimiyyətin oturuşması üçün hər halda Nikol Paşinyana müəyyən vaxt limiti tanıyıb.

Aydındır ki, Azərbaycan əli günahsız azərbaycanlıların qanına bulaşmış, Xocalı soyqırımına imza atmış Sərkisyan-Köçəryan cütlüyünün siyasi revanş götürməsini istəmir. Hər necə olmasa, Ermənistandakı yeni hakimiyyət yeni danışıqlar üçün yeni potensial deməkdir. Fəqət, Bakının səbri də sonsuz deyil. Sərkisyan-Köçəryan cütlüyü ilə 20 ildə anlaşmaq mümkün olmadı, bəlkə Paşinyan hökuməti ilə oldu?

**Təbii ki, sualın cavabı Rusiyadan da asılı olacaq. Özü də xeyli dərəcədə. Nədəni məlum: Ermənistan inqilabdan sonra da Kremlin forpostu olaraq qalır. Regionda yeganə qanuni rus hərbi bazaları məhz Ermənistandadır. Bu isə çox ciddi faktordur - o cümlədən Paşinyan iqtidarının siyasi uzun ömürlülüyünə qarşı...**

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

# “Paşinyanın qeyri-realist, əsassız cəhdləri danışıqlar prosesini tamamilə pozmaq məqsədi daşıyır”

## **Azay Quliyev:** “Dağlıq Qarabağ separatçılarını müstəqil tərəf kimi danışıqlar masasına gətirmək cəhdləri nəinki qəbuledilməz, həm də təhlükəlidir”

**Mili Məclisin deputatı, ATƏT PA-nın vitse prezidenti Azay Quliyev qurumun payız sessiyası çərçivəsində keçirilən Daimi Komitənin iclasında çıxış edib.**

**Musavat.com-un məlumatına görə Azay Quliyev bildirib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlamasından əsrin dörddə biri qədər vaxt keçsə də, təəssüf ki, hələ də problemin həlli üçün heç bir irəliləyişə nail olunmayıb.** Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, eləcə də BMT Təhlükəsizlik Şurasının və BMT Baş Assambleyasının qərarlarını, habelə ATƏT PA-nın 2015-ci ildə qəbul etdiyi Helsinki bəyannaməsini kobud şəkildə pozaraq, Azərbaycan ərazilərinin qanunsuz işğalını davam etdirir.

**A.Quliyev ATƏT PA-nın prezidenti Tseretelinin münaqişə tərəfi olan ölkələrin parlament rəhbərlərinin görüşünün keçirilməsiylə bağlı təklifinə münasibət bildirərək deyib ki, yaxın zamanda Azərbaycan Milli Məclisinin bu məsələylə bağlı rəsmi mövqeyini öyrənərək onlara məlumat verəcək:** “Fikrimcə, biz Ermənistan və Azərbaycanın parlamentlərinin rəhbərlərinin görüşü də daxil olmaqla, münaqişənin həlli istiqamətində bütün mümkün vasitələrdən istifadə etməliyik. Bu, danışıqlar prosesinə müəyyən impuls verə və mövcud status-kvonu dəyişməyə yardım edə bilər”.

**ATƏT PA-nın vitse-prezidenti Assambleyanın Daimi Komitəsi və Büro üzvləri üçün münaqişənin həlli ilə bağlı hazırkı vəziyyətə dair iki əsas komponentə aydınlıq gətirib:** “Əslində, Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında ikitərəfli görüşlər nəzərə alınmasa, hazırda ən yüksək səviyyədə davam edən real danışıqlar yoxdur. Danışıqlar prosesi Ermənistanın yeni rəhbərliyi tərəfindən dayandırılıb. Baş nazir Paşinyan vəzifəyə gəldikdən sonra nümayişkaranə şəkildə indiyədək əldə edilmiş nəticələrə göz yumur və ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar formatından imtina edir. Beləliklə, o, sülh yolu ilə məsələnin həll olunması formatını dəyişdirməyə və Dağlıq Qarabağ separatçılarını müstəqil tərəf kimi danışıqlar masasına gətirməyə çalışır. Bu nəinki qəbuledilməz, həm də təhlükəlidir. Məlum olduğu kimi, münaqişənin iki tərəfi var: Ermənistan və Azərbaycan. Bu beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT tərəfindən təsdiq edilmişdir”.



**A.Quliyev Paşinyanın mövcud formatı dəyişdirmək üçün etdiyi qeyri-realist və əsassız cəhdlərin sülh danışıqları prosesini pozaraq tamamilə dayandırmaq məqsədi daşıdığını deyib:** “Münaqişənin sülh yolu ilə həlli üçün aparılan danışıqlar prosesinin pozulmasının ağır nəticələrini hər birimiz aydın təsəvvür edə bilirik”.

**ATƏT PA-nın vitse-prezidenti deyib ki, Azərbaycan Dağlıq Qarabağ əhalisinin regionun yekun hüquqi statusunun müəyyənləşdirilməsində iştirak etməsi məsələsini anlayır və bunu həyata keçirməyə hazırıq. Amma bu, yalnız 7 ətraf rayonun işğaldan azad edilməsindən və bütün məcburi köçkünlərin doğma yurdlarına qayıtmasından sonra mümkündür:** “Rəsmi Bakı Azərbaycanın beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən ərazi bütövlüyü və suverenliyi çərçivəsində Dağlıq Qarabağın həm erməni, həm də azərbaycanlı icmalarının gələcəkləri barədə qəbul edəcəkləri birgə qərarı dəstəkləməyə hazırdır”.

**A.Quliyev Assambleya üzvlərinin diqqətini münaqişəylə bağlı aydınlaşdırılmasına ehtiyac olan digər bir aspektə də çəkib:** “Bəziləri münaqişəni səhvən ”Dağlıq Qarabağ münaqişəsi" adlandırırlar. Bu doğru deyil. Azərbaycanın Dağlıq Qarabağdan başqa, işğal altında Dağlıq Qarabağın ərazisindən 3 dəfə, əhalisindən isə 6 dəfə çox olan 7 ətraf rayonu da var: Kəlbəcər, Laçın, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan. Bu 7 ətraf rayonun Dağlıq Qarabağla heç bir əlaqəsi yoxdur və biz şahidik ki, Ermənistan işğal etdiyi bu ərazilərdən siyasi manipulyasiya və bazarlıq predmeti qismində istifadə edir.

ATƏT PA-nın vitse-prezidenti bildirib ki, bu bölgələrin statusu müzakirə mövzusu deyil. Ermənistan hərbi birləşmələrini bu torpaqlardan şərtsiz çıxarmalıdır. Bu məsələ hər hansı bir qondarma kompromis mövzusu ola bilməz.

**A.Quliyev çıxışında vurğulayıb ki, Ermənistanın siyasi rəhbərliyi Azərbaycana məxsus olan Dağlıq Qarabağın və ətraf rayonların işğalını davam etdirərək və orada qeyri-qanuni və marionet rejim yaradaraq heç bir nəticə əldə edə bilməyəcəyini unutmamalıdır:** “Bu cür addımlar heç nəyi dəyişmir və Ermənistana sülh və rifah gətirmir.Əksinə bu hal, vəziyyəti daha da ağırlaşdırır və çoxlu sayda gənclərin həyatına son qoyur”.

❑ **Musavat.com**



# Fransa prezidenti Azərbaycana gəlir

**Fransa Prezidenti Emanuel Makronun gələn həftə Azərbaycana səfəri nəzərdə tutulub.**

."Report" “La Tribune” nəşrinə istinadən xəbər verir ki, səfər çərçivəsində iki ölkə arasında əməkdaşlıq məsələləri, o cümlədən Azərbaycana gözətçi katerlərin tədarükü barədə Fransanın “Naval Group” şirkəti ilə gözlənilən müqaviləyə dair danışıqlar aparılacaq. Həmçinin Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri də müzakirə olunacaq.

Prezident Emanuel Makronun oktyabrın 11-12-də Yerevanda keçiriləcək Frankofoniya zirvə görüşündə iştirak etmək üçün Ermənistana gedəcəyi də gözlənilir

# Əfv, yoxsa bəraət - casus-keşiş bağışlanacaqmı?



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Türkiyə-ABŞ münasibətləri üçün növbəti kritik gün yaxınlaşır. Oktyabrın 12-də qardaş ölkənin Konstitusiya Məhkəməsində (KM) amerikalı keşiş Endryü Bransonun məsələsinə baxılacaq. Həmin tarixlə bağlı Türkiyə və ABŞ mediasında gedən yazılardan hasil olan orta rəy belədir ki, qalmaqallı rahibin üzərindən ittiham götürülə və o, ölkəsinə göndərilə bilər.**

KM ən yüksək hüquqi instansiya sayılır. Yəni bundan o yana “kənd” yoxdur. Başqa sözlə, cəmi 5 gün sonra Branson məsələsinin bütün hallarda sonuna gəlinəcək.

Ev dustaqlığı yaşayan casus-keşişlə bağlı qalmaqalın türk iqtisadiyyatına və lirənin kursuna özünəməxsus neqativ psixoloji təsiri sirr deyil. Necə deyərlər, Branson iki ölkə münasibətləri üçün yetərincə “bahalı obyektə”, mataha çevrilib. Onu ev dustaqlığında saxlamaq da, ondan imtina da hazırda babat “qiymət” tələb edir.

Vəziyyəti tündləşdirən isə odur ki, keşiş problemi ABŞ və Türkiyə üçün eyni dərəcədə prinsipiallıq daşıyır. Ancaq onun həlli çox uzana da bilməz. Çünki altını hər iki tərəf çəkməkdə, müttəfiqlik əlaqələri böyük sual altında qalmaqdadır.

Bu arada Türkiyənin xəzinə və maliyyə naziri Berat Albayrak bildirib ki, “türk lirəsi ilə bağlı pis dönəm artıq arxada qalıb”. Yaxşı xəbərdir. Nazirin sözü gerçəkdisə, - buna inanmaya bilmərik, nədən ki, azad iqtisadiyyat və maliyyə bazarı yalanı, şişirməni sevmir, - o zaman demək ki, qardaş ölkə “ayağını” yerə indi daha inamlı basa bilər. Bu səbəbdən rahib məsələsində prezident Ərdoğanın daha sərbəst qərar verəcəyini gözləmək lazım gəlir.

Əslində Branson Türkiyəyə arabanın “5-ci təkəri” kimi əlavə yükdür. Sadəcə, Ankara bu “yük”dən urvatlı şəkildə qurtulmaq istəyir. O anlamda ki, problemin həlli qardaş ölkəyə hər hansı aşağılıq gətirməsin. Amerika tərəfi isə özünü qalib saymasın. Yəni nüfuzun saxlanması məsələsi.

Bəs 12 oktyabrda nə baş verəcək? NATO üzrə iki mühüm və biri-biri üçün vazkeçilməz müttəfiqin, faktiki, “siam əkizləri” kimi bir-birinə bağlı iki dövlətin, nəhayət, iki “mehriban düşmən”in yolları bir qədər də ayrılacaq, yoxsa yaxınlaşacaq?

Problemin siyasiləşdiyini nəzərə alsaq, qərar da yəqin ki, təkcə hüquqi müstəvidə deyil, eyni zamanda ən yüksək siyasi çevrələrdə veriləcək. Ayrı sözlə, rahibin taleyi KM-nin iclasına kimi müəyyənləşəcək.

Belə də ola bilər: sonuncu məhkəmə instansiyası kimi KM də Bransonu azad eləmir, Türkiyə prezidenti Ərdoğan isə humanistlik və böyüklük göstərərək, iki xalq arasında dostluğa töhfə kimi keşişi əfv edir. Yəni rahibə hər hansı bəraət verilmir, günahı üstündə qalır, yalnız əfv olunur. Necə ki, ötən il prezident İlham Əliyev ermənipərəst blogger Aleksandr Lapşini türmə cəzası çəkməkdən azad edərək bağışlamışdı.

Bununla heç kimin qılıncının qaşı düşməz. Əksinə, bir rus məsəlində deyildiyi kimi, o halda “həm canavarlar tox qalar, həm də qoyunlara bir şey olmaz”. Ən önəmlisi isə Amerika tərəfinin Ankaranın xoş məramını necə qiymətləndirəcəyidir. Əgər Vaşinqton Ankara kimi uzaqgörənlik etməyib bunu öz qələbəsi kimi qələmə verəcəksə, daha betəri, ardınca başqa tələb irəli sürəcəksə, o zaman uduzan ən çox ABŞ olacaq. Çünki qalib varsa, məğlub da var.

Məğlub qismində Türkiyə barmaqla göstəriləcəyindən, Ankara bişəkk, bu “pisliyin” əvəzini çıxmağa çalışacaq, münasibətlər yenidən və bir az da qəliz dalana girəcək, Ankara ABŞ-dan uzaqlaşmaq kursunu davam etdirəcək. Kəsəsi, ABŞ-ı öz qələbəsinə peşman edəcək. Yaxşılıq pisliyə çevriləcək - Amerika üçün.

Okeanın o tayından adekvat reaksiya - minnətdarlıq gələrsə, Türkiyə dövlətinin qüruruna toxunulmazsa, ona yeni əməkdaşlıq təklifləri edilərsə, onda münasibətlər böhranlı durumdan çıxmağa üz tuta bilər. Gözləyək görək, tərəflərin müdrikliyi hara kimi bəs edəcək?..

Ağıl vermirik, amma böyük fransız mütəfəkkiri və diplomatı Toleyran haqqına deyib ki, “dostların sayını azaldan siyasət uğurlu siyasət deyil”. Nə Türkiyəyə, nə də ABŞ-a indi təzə düşmənlər lazım deyil. Tam əksinə.

Ümid edək ki, Branson “böhranı” məhz bu imperativin diktəsi ilə həllini tapacaq. Bir də deyirlər ki, “Ağıllı adam istənilən qəliz vəziyyətdən məharətlə çıxır, müdrik isə belə vəziyyətlərə, ümumiyyətlə, düşmür”.

**Zəmanə indi hamıdan müdriklik tələb edir. Ən əvvəl də dünyada və bölgədə əmin-amanlığa görə məsuliyyət daşıyanlardan...**

YENİ MÜSAVAT
N 210 (7099) 6 oktyabr 2018

# "Kəndlilərin heç də hamısı Bakıya gələn kimi xoşbəxt olmayıb"

## Əhməd Qəşəmoğlu: "Ölkə əhalisinin az qala yarısının Bakıda yaşaması çox böyük ekoloji, sosial, mənəvi problemlər yaradır"

**Bakıda hər addımda qarşımıza çıxan sıxlıq, tıxac və gərginlik... Bütün bunların səbəbi ötən illər ərzində bölgələrdə yaşayan əhalinin sosial-iqtisadi problemlər məngənəsindən qaçaraq paytaxta üz tutmasıdır. Axın hələ də davam edir və ekologiyadan, nəqliyyatdan tutmuş iqtisadiyyata, kənd təsərrüfatına qədər bir çox sahələrdə problemləri də bərabərində gətirir.**

Bu məsələnin paytaxt şəhərə və ölkəyə yaratdığı problemlər və həlli yolları ilə bağlı **sosioloq Əhməd Qəşəmoğlu** "Yeni Müsavat"a müsahibə verib.

***- Əhməd müəllim, Bakının demoqrafik vəziyyətini necə qiymətləndirirsiniz?***

- Bakıda bu qədər sıxlığın olması çox böyük problemdir, təbii ki, belə olmamalı idi. Əhalinin böyük bir hissəsi Bakıda toplaşmamalı idi. Respublikanın heç 10 milyon əhalisi yoxdur, onun az qala yarısı Bakıda yaşayır. Bu isə çox böyük ekoloji, sosial, mənəvi problemlər yaradır. İndiki halda bu həm də təhlükəlidir. Çünki qloballaşma prosesi sürətlə gedir və belə bir vaxtda cəmiyyət mürəkkəbləşir. Bir tərəfdən də bu faktor gündəmə gəlir. Əhali bir qədər nizamsız şəkildə bir yerə yığışanda vəziyyətin mürəkkəbliyi bir neçə qat artır. Cəmiyyətin belə mürəkkəbləşməsi isə sosial problemləri artırır, kriminal hallar çoxalır və sair. Ona görə də yaxşı olardı ki, paytaxt şəhərdə bu qədər əhali sıxlığı olmasın, müəyyən qədər daha az insan yaşasın. Bu zaman bir çox ekoloji və sosial problemlər də daha asan şəkildə həll oluna bilərdi.

***- Rayonlardakı işsizlik, məişət şəraitinin olmaması, infrastrukturun zəif olması da əhalinin paytaxta axınını tətikləyirmi?***

- Təbii ki, bu kimi məsələlərin də böyük təsiri var. Çünki heç kim xoş günündən qaçıb Bakıya gəlməyib. Bir hissəsi xarici ölkələrə, əsasən də Rusiyaya üz tutub, bir hissəsi də gəlib Bakıda toplaşıb. Bizim öz kəndimizin əhalisi gəlib Bakıda məhəllə salıblar. Təbii ki, kəndlilərin heç də hamısı gəlib Bakıda xoşbəxt olmayıb. Əksəriyyəti xidmət sektorunda işləyirlər, çox ağır işlər görürlər, mənəvi zərbə alıblar. Sadəcə, bəzi maddi problemlərini həll ediblər. Eyni zamanda həm özləri, həm də cəmiyyət üçün bir çox problemlər də yaradıblar. Ona görə də, Bakıya gəlmək hələlik nə gələn insanın özü üçün bütün problemlərin həlli demək deyil, nə də Bakı üçün o qədər əhəmiyyətli deyil. Bu səbəbdən Bakıya toplaşmaq həm bura gələnlərin özləri, həm bakılılar, həm də ümumilikdə ölkə üçün böyük problem yaradıb. Ona görə də, nə qədər ki gec deyil, bu məsələlərə planlı şəkildə, elmi izahlarla yanaşmaq və ciddi layihələr həyata keçirərək həllinə nail olmaq lazımdır.




**"Kəndlinin əsas işi torpağı əkib becərmək olmalıdır; onun texnika əldə etmək, gübrə tapmaq, bankdan kredit götürmək kimi qayğıları olmamalıdır"**

***- Siz bir sosioloq kimi necə bir həll yolu təklif edirsiniz?***

- Mən hələ 1994-cü ildə böyük bir layihə hazırlamışdım. Ancaq o zaman dövlət qurumlarından heç biri bu layihəyə diqqət vermədilər. Mən o zaman ciddi bir idarənin rəhbəri idim və bu məsələ ilə bağlı səlahiyyətlərim də var idi. Bu kimi problemlərin həlli üçün layihələr hazırlayırdım. Bu layihəmə heç bir əhəmiyyət verilmədi. O vaxtdan başlayıb başqa şəhərlərimizi inkişaf etdirsək daha yaxşı olardı. Məsələn, mənim təkliflərimdən biri Bərdəni inkişaf etdirmək idi. Bu şəhəri inkişaf etdirsəydik, orada aqrar sektor çox sürətlə inkişaf edərdi. Həmçinin Dağlıq Qarabağın qarşısında çox böyük gücü olan bir şəhər yarana bilərdi. Bakıda bu qədər sıxlıq olmazdı. Bu şəhərləri salmaq o qədər də çətin məsələ deyildi. Torpaq verilərdi və biznesmen özü gəlib tikinti aparardı. Bu baxımdan dövlət büdcəsi üçün də çətinlik yaratmırdı. Biznesmenlərin özünün də bu işdə böyük marağı və rolu ola bilərdi. Təəssüf ki, bu layihə həyata keçirilmədi.

***- Demoqrafik sıxlıq əhalinin həyat şəraitinə necə təsir göstərir?***

- Problem təkcə əhalinin bir yerə toplaşması və mənzil məsələsi deyil. Bir neçə günün içində çoxmərtəbəli binalar tikilir və onlarla ailə mənzillə təmin olunur. Ancaq onlara normal istirahət məkanı, məktəb, bağça, xəstəxana və sair kimi infrastrukturun yaradılması məsələsi ciddi problem olur. Bakıda Yeni Yasamal adlanan bir qəsəbə var. Orada bir-birinin yanında sıx şəkildə çoxmərtəbəli binalar tikilib. Binalar az qala bir-birinə dəyir birinin pəncərəsindən digərinin mənzili görünür. Əsas problem odur ki, bu qədər tikilinin ortasında bir dənə də yaşıllıq yoxdur. Binaları sıx tikməklə ekoloji vəziyyəti pozmaq, heç bir yaşıllıq saxlamamaq, normal bir istirahət parkı salmamaq nə deməkdir... Bu çox ciddi bir problemdir. Bakının bu cür əcaib şəkildə böyüməsi arzuolunan deyil.

***- Son illərdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı həyata keçirilir və bölgələrdə iş gedir, aqrar sektor ön plana çıxarılıb. Bu cür inkişaf davam etsə, iş yerləri yaransa, sizcə, insanlar kəndlərinə geri qayıdarmı? Yoxsa bakılı olmaq istəyi bir mənəvi tələbata çevrilib?***

- Mən bu məsələ ilə bağlı çox insanla həmsöhbət olmuşam, müşahidələr aparmışam. Gəldiyim nəticə budur ki, yerlərdə lazımi infrastruktur yaradılsa, əhalinin çox hissəsi rayonlara geri qayıdar. Ancaq insanlar kəndlərə qayıtsa gərək onlara kənd təsərrüfatı ilə normal şəkildə məşğul olmağa imkan verilsin. Normal inkişafa nail olmaq üçün, hər kəsə öz işi ilə məşğul olmağa imkan yaradılmalıdır. Kəndlinin əsas işi torpağı əkib becərmək olmalıdır. Onun texnika əldə etmək, gübrə tapmaq, bankdan kredit götürmək kimi qayğıları olmamalıdır. Bunlar dövlət təşkil etməlidir. Hökumət həm də elə şərait yaratmalıdır ki, kəndlini əkdiyi məhsulun bazarı olsun. Məsələn, mən bu il mağazada soğanın kiloqramını 19 qəpiyə görəndə çox böyük təəssüf hissi keçirdim. Təsəvvür edin ki, əgər soğan mağazada 19 qəpiyə təklif olunursa, deməli, kəndlidən kiloqramı 10 qəpiyə alınıb. Axı yazıq kəndli o qədər əziyyətdən sonra məhsulunu 10 qəpikdən satmaqla nə qazanır. Növbəti il baxacağıq ki, soğan çox bahadır. Çünki bu il fermerlər soğanın gəlir gətirmədiyini gördülər və əksəriyyəti gələn il əkməyəcək. Nəticədə qıtlıq ola bilər. Dediyiniz Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Kənd Təsərrüfatı Nazirliyi də iş aparmalıdır, kəndlilərə hansı məhsula nə qədər tələbat olduğu haqqında məlumat verməlidir. Fermerə göstərməlidir ki, hansı məhsuldan nə qədər becərilsə onlar üçün də, əhali üçün də faydalı olar. Ötən il sarımsağın kiloqramı 5-7 manat idi. Bu il isə 50 qəpiyə -1 manata satılır. Ötən il sarımsağın kiloqramı 5 manata olduğu üçün insanlar həvəslənib və çox adam əkib. Deməli, burada plansızlıq var. İnsanlar kənddə oturub ölkədə hansı məhsula nə qədər tələbat olduğunu bilə bilməz. Müəyyən müddət hansısa mərkəz tərəfindən bu tənzimlənməlidir. Fermerlərə məlumat verilməlidir ki, daxili bazar üçün hansı məhsuldan nə qədər əkilməlidir. O cümlədən xaricə ixrac üçün nə qədər əkilə bilər. Məsələn, kartof əkən hər fermerin məhsulunu Rusiya bazarına aparıb satmaq imkanı yoxdur axı. Gərək belə bir mərkəz olsun, fermerdən məhsulu faydalı qiymətə alsın. Kəndli soğanı 10 qəpikdən satacaqsa, o nə qədər iş görməlidir ki, həm gübrənin, həm texnikanın pulunu çıxartsın, həm də xeyri qalsın. Onlar xərclədikləri vəsaiti çətinliklə çıxarırlar. Bu kimi məsələlərə görə insanlar kəndə qayıtmır. Sadəcə qayıt deməklə problemi həll etmək olmaz.

***- Sizcə, qeyd etdiyiniz problemlər həllini taparsa, bu, Bakını sıxlıqdan xilas edə bilərmi?***

- Cəmiyyət gündən-günə mürəkkəbləşir. Belə bir cəmiyyətdə elmi təminatı olan layihələr tətbiq olunmalıdır. Bütün proqramlar, layihələr bir-biri ilə əlaqəli şəkildə aparılmalıdır. Şəxsən mənim tanıdığım kəndlilər normal bir şərait yaradılacağı halda qayıdıb rayona gedər. Orada sakit şəkildə öz məhsulunu yetişdirər və bazar axtarmaq məcburiyyətində qalmaz. Öncədən bilər ki, hansı məhsuldan nə qədər alsa, ziyana düşməyəcək. Ona görə də, bu sahələrdə iş aparılmalıdır. Parklarımız, binalarımız, küçələrimiz gözəl təmir olunduğu kimi, bu sahələri də yoluna qoymalıyıq. Aqrar sektorda pərakəndəlik var, qarışıqlıq var. Məhz buna görə bu gün Bakıda əhali sayı çoxdur, hamı Bakıya axın edir.

❑ Nərgiz LİFTİYEVA
"Yeni Müsavat"

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# Ermənistan olaylarının pərdəarxası - Qarabağ danışıqlarını nə gözləyir?

## "Sülh modeli yalnız 5 rayonu qaytarmaqdan ibarət olmaya bilər" - iddia; **erməni politoloq:** "Ermənistanda legitimlik uğrunda mübarizə gedir...."

**İşğalçı Ermənistanda mürəkkəb, bir az da dramatik olaylar başlayıb. Bu da qonşu ölkədə 8 may inqilabından sonra hakimiyyət dəyişikliyinin, bütövlükdə inqilabın başa çatmaması ilə birbaşa əlaqəlidir. Azərbaycan üçün orada gedən proseslər, əlbəttə ki, müstəsna olaraq, həlli uzanan Dağlıq Qarabağ konflikti kontekstində, torpaqlarımızın işğaldan azad edilməsi kontekstində önəm və maraq kəsb edir.**




*Bəs düşmən ölkədəki proseslər nə vəd edir? İnqilabçı baş nazir Nikol Paşinyan əsas rəqibləri ilə mübarizədən qalib kimi ayrılıb, hakimiyyətini möhkəmlədə biləcəkmi? Bəs Qarabağ danışıqları nə gözləyir?*

*****

"Ermənistanda mahiyyət etibarilə köhnə və yeni hakimiyyət arasında legitimlik uğrunda mübarizə gedir". "Yeni Müsavat"ın erməni qaynağına istinadən verdiyi xəbərə görə, bunu Avropa yaşayan erməni ekspert Riçard Kirokosyan deyib. Onun sözlərinə görə, Nikol Paşinyan hökuməti üçün legitimlik "xalq mandatından" qaynaqlanır.

"Bu "mandat" da onun populyarlığını və təşkil elədiyi küçə etirazlarının gücünü müəyyən edir. Korrupsiya və saxta seçkilərə görə özünü gözdən salmış və ictimai dəstəyini itirmiş keçmiş elitanın legitimliyi isə parlament üzərində nəzarətə əsaslanan demokratiya imitasiyası üzərində qurulub - bu, getdikcə seçicilərin ovqatına daha çox uyğun gəlməsə də", - deyə erməni təhlilçi qeyd edib.

Erməni analitikin sözlərinə görə, bununla belə, hazırkı mürəkkəb situasiyaya baxmayaraq, Ermənistandakı yeni siyasi reallıq geri dönməz xarakter daşıyır. "Əvvəlki hökumət və ona yaxın partiyalar getdikcə daha çox "keçmiş" termininə uyğun gəlir. Onlar hər bir addımları ilə o cizgiyə yaxınlaşırlar ki, ondan sonra onlar haqqında ölkənin siyasi tarixində yalnız xatirələr qalacaq" - Kirokosyan əlavə edib.

*****

**Bir sıra analitiklərə görə, Ermənistandakı son proseslərin Düşənbə anlaşmasından sonra baş verməsi də təsadüfə oxşamır. Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiya komitəsinin üzvü Zahid Oruc isə hesab edir ki, əslində Düşənbədə Azərbaycan tərəfi Niklol Paşinyan hökumətini tanıdığını ortaya qoyub və onu siyasi dayanıqlı tərəf kimi qəbul etdiyini göstərib.**

"Bu, o anlama gəlir ki, müəyyən mənada xalqın apardığı üsyan nəticəsində formalaşan elita ilə Qarabağ məsələsi ətrafındakı aparılan vasitəçilik missiyası davam edəcək. Məsələnin başqa bir önəmli tərəfi ondan ibarətdir ki, ATƏT-in Minsk Qrupu formatında proses əslində Sərkisyan hakimiyyətdə olarkən iflasa uğramışdı. Bu pauza hələ də davam edir və mənafelərimiz baxımından təhlükəli deyil", - deyə deputat axar.az-a bildirib.

Onun sözlərinə görə, əgər Ermənistan Minsk Qrupu həmsədrləri arasındakı ziddiyyətlərdən faydalanmaq imkanını itirsə və məsələ yalnız silahlı qüvvələrin üzərinə keçsə, o müstəvidə də ordumuzun imkanları düşməndən qat-qat böyükdür: "Bu mənada son aylar gedən proses Azərbaycanın dominantlığı şəraitində keçir. Yəni Paşinyan onu hesablamağa qadirdir ki, erməni ana-atasının evinə Qarabağdan cəsəd gəlirsə, bu, Azərbaycana psixoloji üstünlük qazandırır. O zaman bütün insanlar köhnə iqtidarın üzərinə yeriyirdi. Axı indi özlərinin nəzərində demokratik, birbaşa xalqa bağlı qüvvə bu itkiləri necə cavablandıracaq? Ona görə də Ermənistanın hazırkı durumunda vəziyyətin bir qədər də dramatikləşməsi yalnız Düşənbə danışıqları ilə deyil, ümumilikdə Azərbaycanın mövqeyi ilə xeyli dərəcədə əlaqədardır. Bu da ondan ibarətdir ki, Azərbaycan Ermənistanın siyasi meydanını, manevr müstəvisini daraldır. Yəni uzun on illər ərzində Rusiya ilə münasibətləri Azərbaycanın əleyhinə çevirmək xəttini neytrallaşdıranda şübhəsiz ki, onlar öz təxribatçı addımlarının effektini görmürlər".

**Deputata görə, məsələnin ən önəmli tərəfi ondan ibarətdir ki, bu gün hər kəs Cənubi Qafqazda siyasi tonu, şərtləri məhz Azərbaycanın müəyyənləşdirdiyini dərk edir:** "Geosiyasət, iqtisadiyyat və bölgənin təhlükəsizliyi məsələsində də bu belədir. Tarix boyunca bir dövlət kimi bölgədə Azərbaycanın rolu nə vaxt aşağı salınıbsa, onda bu məkanda sabitliyi təmin etmək mümkün olmayıb. Azərbaycanın imkanlarının irəlidə olması hamının mənafeyinə xidmət edir. Hesab edirəm ki, hazırda Ermənistandakı siyasi gərginliyin ötürülməsi üçün yalnız Qarabağ məsələsində konstruktiv mövqe tutmaqla iş bitməyəcək. O cümlədən erməni xalqı bəlkə də bu seçimdə bütövlükdə Azərbaycan, türk dünyası və bölgə dövlətləri ilə münasibətləri gündəmə gətirməlidir. Hər halda Levon Ter-Petrosyanın siyasi tələbəsi və onun yanında yer alan şəxs olaraq Paşinyan dərk etməlidir ki, o, müharibəni təşviq etdikcə sərkisyanlaşacaq və ölkəsi üçün heç bir demokratik rifah vəd edən addımları reallığa çevrilməyəcək".

*****

**Bu arada Aleksandr Duqin, Sergey Markov kimi rusiyalı tanınmış politoloqlar yenidən "5 rayon" məsələsindən danışmağa başlayıblar. Ermənistandakı son hadisələr fonunda bu kimi ehtimallar nə dərəcədə əsaslı görünür?**

**Z.Orucun bununla bağlı mövqeyi belədir ki, Azərbaycan və Rusiya prezidentləri arasında formalaşan çox yüksək səviyyəli münasibətlər gələcəkdə bir çox məsələnin həllində önəmli rol oynayacaq:** "Yəni Əliyev və Putin Qafqazda sülh arxitekturasının quruculuğunda mühüm rol oynaya və formalaşacaq o arxitektura hamının xeyrinə işləyə bilər. 5 və ya 7 rayon mövzusunda detallara çox varmaq və Qarabağ məsələsinin həlli yolunu yalnız bu şəkildə görmək prosesi məhdudlaşdıra bilər. Bundan da fərqli modellər var və liderlərin gücü onların çoxları üçün ağılasığmaz görünən variantları seçmiş olmalarındadır. Zənnimcə, bu variantlar mövcuddur, sadəcə ictimai-siyasi fikir məkanında çox dövr etmir. Yəni Ermənistan-Azərbaycan arasında sülhün modeli yalnız 5 rayonu qaytarmaqdan ibarət olmaya bilər".

**Azərbaycana təbii ki, 5 rayon yox, işğal altındakı bütün qanuni əraziləri lazımdır. Dəfələrlə yazıldığı kimi, əgər 5 rayonun qarşılığında ölkəmizin ərazi bütövlüyü enində-sonunda müzakirə mövzusu olacaqsa, bu variantdan da imtina ediləcək. Torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına heç vaxt razılıq verilməyəcək...**



Mark Babot

## "Azərbaycanla xüsusən də hərbi sahədə fəal işləyirik" - israilli ekspert

**"İsrailin Azərbaycan və Gürcüstanla ənənəvi əlaqələri var və bu, təkcə hərbi sahəni əhatə eləmir. Biz bilirik ki, Gürcüstan və Azərbaycanda heç vaxt antisemitizm olmayıb. Ermənistanda belə hallar olub. Müdafiə və təhlükəsizlik baxımından İsrailin Ermənistanda maraqları yoxdur". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə israilli hərbi ekspert, İsrailin müdafiə ordusunun Baş Qərargahının podpolkovniki Mark Babot "Stmegi" nəşrinə müsahibəsində deyib.**

Onun sözlərinə görə, son 10-15 ildə Güney Qafqaz bölgəsində Azərbaycan və Gürcüstanla fəal şəkildə işləyir. "Xüsusən də Azərbaycanla işləyirik. Əsas iş Azərbaycan ordusunun, ölkənin hərbi-hava qüvvələri və hərbi-dəniz qüvvələrinin təchizatı yönündə aparılır. Azərbaycanla müqayisədə Gürcüstana daha az silah satırıq. Gürcüstan və Azərbaycanın oxşar ərazi problemlər var", - deyə hərbi ekspert qeyd edib.

YENİ MÜSAVAT
N 210 (7099) 6 oktyabr 2018

# Soros təhlükəsi bitir - dünya "rəngli inqilablar"dan qurtulur

## Əliməmməd Nuriyev: "Sorosa artıq etibar olunmur..."

**"Forbes" jurnalı 24 il ərzində ilk dəfə ABŞ-ın ən zəngin insanlarının reytinqində lideri dəyişib. "Trend" xəbər verir ki, indi ölkənin əsas multimilyarderi "Amazon" onlayn satış şirkətinin rəhbəri Ceff Bezosdur. O, ilinə 78,5 milyard dollar qazanmaqla "Microsoft"un təsisçisi Bill Qeytsi qabaqlayıb.**

C.Bezosun ümumi varidatı 160 milyard dollar qiymətləndirilir ki, bu da reytinq tarixində rekord məbləğdir. İkinci sıraya düşən "Microsoft" şirkətinin təsisçisinin varidatı 97 milyard dollar təşkil edir. Twitter sosial şəbəkəsinin və "Square" ödəniş sisteminin baş direktoru Cek Dorsi hamıdan tez varlanıb. Əsas uğursuzluğa isə Corc Soros imza atıb. Onun kapitalı təqribən 3 dəfə - 23 milyarddan 8,3 milyard dolları dək azalıb.

"Forbes"in reytinqində əsas diqqəti C.Soros çəkir. Bu milyarderi dünyada tanımayan yoxdur. Soros postsovet məkanı daxil, bir sıra ölkələrdə demokratiya pərdəsi adı altında təşkil olunan "rəngli inqilablar"ın sponsoru və ideya müəllifidir. Gürcüstan, Ukrayna, Qırğızıstan kimi bir sıra ölkələrin adlarını çəkə bilərik ki, Soros bu dövlətlərdə inqilab ideyasını həyata keçirə bilib. "Ərəb baharı" adı altında 2011-ci ildə bir sıra müsəlman ölkələrində başlanan və həmin ölkələri viran qoyan inqilablarda da "Soros izi"nin olduğuna şübhə yoxdur.

Onun biznesdəki uğursuzluğunun "rəngli inqilablar" ideyasının tarixə çevriləcəyi yönündə fikirlər səslənməkdədir. Bir növ dünyanın qocaman milyarderdən qurtulacağı bildirilir.

**Hüquqşünas Əliməmməd Nuriyev** Sorosun böyük maliyyə oyunçusu olduğunu qeyd etdi: "O ayrı-ayrı dövlətlərin, transmilli şirkətlərin, müxtəlif şəxslərin vəsaitlərini idarə edir. Yəni o, vəsaitlərini daha çox idarəetmədən əldə edib. Onun fəaliyyətində ayrı-ayrı ölkələrdə siyasi proseslərə də təsiretmə imkanları var. Artıq Avropada onun hərəkətlərinə münasibətdə fərqli davranışlar meydana çıxıb - dövlət başçıları səviyyəsində. Macarıstan Sorosun bütün təşkilatlarını bağlayır, ölkədə də onun fəaliyyətini məhdudlaşdırıb. Bu proses digər ölkələrdə də getməkdədir. Soros Amerikada demokratların partiyasının maliyyələşdirilməsində iştirak edib. Eyni zamanda çox ciddi surətdə yeni seçilmiş prezidentə qarşı böyük bir fəaliyyətə başlamışdı. ABŞ prezidenti Donald Tramp hətta bir çox çıxışlarında onun adını çəkmiş, bir növ onu hədələmişdi. Şübhəsiz ki, bütün bunlar ona olan etimadın azalmasına gətirib çıxarıb. Bir çox maliyyə qurumları, dövlətlər, şirkətlər vəsaitlərini idarə olunması baxımından Sorosdan imtina ediblər ki, bu da onun gəlirlərinin aşağı düşməsinə səbəb olub. Hazırda dünyada fərqli trendlər var. Ölkələrdə getdikcə millətçilik ideyaları güclənir. Eyni zamanda ölkələr daxilinə müdaxilə imkanları olan ayrı-ayrı transmilli şirkətlərin, Soros kimi şəxslərin bu imkanlarını məhdudlaşdırmağa çalışırlar.



Corc Soros

Sorosa artıq etibar olunmur. Amerikada ona qarşı fəaliyyət, eyni zamanda fəaliyyətində siyasi fəaliyyət əsas prioritet olduğu üçün ona olan etimad sürətlə azalmaqdadır. Hər kəs yaxşı bilir ki, müxtəlif ölkələrdə "rəngli inqilablar"ın həyata keçirilməsində Sorosun şəbəkəsindən də istifadə olunub. Belə olan halda ona getdikcə münasibət dəyişir. Bu da istər-istəməz onun maliyyə aktivliyinin azalmasına, gəlirlərinin aşağı düşməsinə gətirib çıxarır. Onun pullarının hansı alətlər vasitəsilə işlədiyini də ölkələr yaxşı bilir. Bu alətlərin də qarşısının alınması istiqamətində fəaliyyət aparılır. Nəticədə onun təsir imkanları sürətlə azalır ki, bu da ona etibar edilən maliyyə vəsaitlərinin aşağı düşməsinə səbəb olur. Bundan sonra baş verənlər də onun hər bir fəaliyyətinə ciddi təsir edəcək. Soros fondunun bir çox ölkələrdə villalarının olması genişmiqyaslı fəaliyyətə gətirib çıxarıb. Bu fəaliyyət həm də böyük təsirlərin olmasında başlıca rol oynayır. Təsirlər də siyasi, maliyyə və digər bütün sektorlara aiddir. Soros böyük bir maliyyə aktyorudur, idarə etməyi bacarır və bundan da böyük maliyyə vəsaitləri əldə edir. Bu gəlirlərin də bir qismi ona etibar edən dövlətlərin fondlarına verilir, amma bir qismi də onun özünə qalır. Son illərdə gedən tendensiyalar, dəyişən trendlər şübhəsiz ki, Sorosa ciddi təsir edir. Nəticədə "rəngli inqilablar"ın genişlənməsinin qarşısı alınır. O da bir faktdır ki, Sorosun fondu ilə işləyən şəxslər zaman-zaman hakimiyyətlərdə təmsil olunurdular. Son illərdə burada da azalma baş verir. Bu da birbaşa Sorosun təsir imkanlarının azalması ilə bağlıdır. Dövlət rəhbərləri artıq onun istifadə etdiyi alət və vasitələri çox yaxşı bilir, ona qarşı ciddi fəaliyyət həyata keçirirlər. Dünyada gedən proseslər bütövlükdə onun fəaliyyətinin getdikcə zəifləməsinə səbəb olacaq. Proseslər hələ ki Sorosun xeyrinə olmayan istiqamətdə dəyişir. Güman edirəm ki, yaxın illərdə bu proses davam edəcək".

**Lakin hüquqşünas "rəngli inqilablar"ın yalnız Soros tərəfindən təşkil olunması barədə düşüncələrin əleyhinədir**: "Rəngli inqilablar"ın Soros və onun fondlarının fəaliyyətindən doğduğunu demək düzgün olmaz. Bu inqilabların həyata keçirilməsinin şərtləri var. Soros və fondları sadəcə, sürətləndirici amildir. Ayrı-ayrı dövlətlər var ki, onlar bunda maraqlıdır. Bu maraqları həyata keçirmək üçün müxtəlif ölkələrdə hakimiyyət dəyişikliyinə çalışıblar. Bunlar zaman-zaman baş verən proseslərdir. Burada Soros və onların fondlarının aktivlik dərəcəsi başqa bir məsələdir. Hər şeyi Sorosun etdiyini demək daha çox onun şişirdilməsinə gətirib çıxarır. Belə inqilablar daha çox siyasətlə bağlıdır. Böyük dövlətlər və maliyyə qrupları maraqlarını həyata keçirmək üçün belə yollara əl atırlar. Soros da burada maraqlar daha çox üst-üstə düşdüyü üçün iştirakçı kimi görünür. Ayrı-ayrı mərkəzlərdən siyasi qərarlar qəbul olunandan sonra hakimiyyət çevrilişləri planları qurulur. Belə çevrilişlər də özü ilə böyük təlatümlər gətirir".

**Ə.Nuriyev Sorosun tam olaraq müflis olacağını düşünmür:** "Onun fəaliyyəti davam edəcək. Amma o əvvəlki qaydada idarəedici deyil. Çünki artıq yaşlaşıb. Onun varislərinin kim olacağı, idarəetməni kimlərin aparacağından çox şey asılı olacaq. Həmin şəxslərin Soros kimi idarəedici qabiliyyətlərinin olub-olmayacağı barədə indidən nəsə söyləmək olmur. Soros Fondu getdikcə gücünü itirəcək".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Çeçenistan və İnquşetiya sərhədində gərginlik artır

## Elxan Şahinoğlu: "Moskva toqquşmaya imkan verməz"

**İnquşetiya və Çeçenistan arasında olan sərhəd anlaşılmazlığı Şimali Qafqazda yeni münaqişənin xəbərçisi ola bilər. Doğrudur, hələlik ruslar vəziyyətin daha da böyüməsinin qarşısını alır, ancaq bu regionda hər an hər şey dəyişə bilər. Hələliksə formal da olsa gərginliyin yatırmaq mümkün olub.**

Oktyabrın 4-də İnquş Respublikası parlamenti Çeçenistanla sərhəd sazişini təsdiq edib. "Report" TASS-a istinadən xəbər verir ki, səsvermədə iştirak edən 25 millət vəkilinin 17-si sazişin lehinə, üçü əleyhinə səs verib, qalan beşi də bitərəf qalıb.

Ancaq bu ratifikasiyanın yaranmış narazılığı ortadan qaldıracağı inandırıcı deyil. Çünki ekspertlərə görə, iki qonşu respublika arasında sərhəd mübahisələrinin tarixi çox qədimdir. İndi isə problem yenidən gün üzünə çıxıb və belə görünür ki, Moskvanın diktəsi ilə İnquşetiya tərəfi anlaşmanı təsdiqləyib. Lakin bu, mübahisələrin bitməsi anlamına gəlmir.

Qeyd edək ki, İnquşetiya və Çeçenistanın arasında ərazilərin müəyyən edilməsi ilə bağlı anlaşma sentyabrın 26-da imzalanıb. İnquşetiya prezidenti Yunusbek Yevkurov və Ramzan Kadırov iki respublika arasında inzibati sərhədin təyin edilməsi haqqında müqavilə imzalayıblar.

Ancaq İnquşetiya parlamentinin qərarı respublikada etiraz doğurub. Parlamentin qərarından dərhal sonra İnquşetiyanın paytaxtı Maqas şəhərində yerli əhali parlament binası qarşısına toplaşaraq qərara etiraz edib. Aksiyada




iştirak edənlərin sayı sonradan daha da artıb və hətta hüquq-mühafizə orqanlarının əhalini sakitləşdirmək üçün havaya atəş açdığı haqda xəbərlər yayılıb.

Məsələ ondadır ki, iki Şimali Qafqaz respublikası arasında sərhəd anlaşmazlığı 1991-ci ildə Çeçen-İnquş Muxtar Sovet Sosialist Respublikasının dağılmasından sonra dəqiqləşməyib. SSRİ zamanı Çeçen-İnquşetiya vahid region olub. Ancaq 1991-ci ildə iki respublika ayrılıb. Bundan sonra isə hər iki respublikada hərbi əməliyyatlar, silahlı toqquşmalar, iki çeçen müharibəsi baş verib. Bu səbəbdən də sərhədlərin dəqiqləşdirilməsi uzun zaman alıb.

Sentyabrın 26-da imzalanan sazişə əsasən Nadtereçnıy rayonunun bir hissəsi Çeçenistana, Malqobey rayonu ilə sərhəddə eyni ölçüdə olan ərazi İnquşetiyaya verilib. Ancaq inquşlar bu bölgü ilə razılaşmır.

Çeçen və inquşlar İkinci Dünya müharibəsinin gedişində - 1944-cü ildə Orta Asiyaya sürgün edilib. 1944-cü ilin 23 fevralından 9 martına qədər davam edən "Mərcimək" əməliyyatı nəticəsində minlərlə çeçen və inquş ailələri Çeçen-İnquş MSSR ərazisindən kütləvi şəkildə Qazaxıstan və Orta Asiyaya sürgün edilib.

Sürgünə səbəb kimi, müharibə dövründə kütləvi fərarilik, hərbi xidmətdən yayınma və arxa cəbhədə silahlı üsyan hazırlığı göstərilib. Bəzi ehtimallara görə həmin vaxt Çeçenistan və İnquşetiyadan 500 minə yaxın insan sürgün edilib. Çeçenlər və inquşlar yalnız 1957-ci ildən sonra öz evlərinə qayıtmağa başladılar. SSRİ-də repressiyaya məruz qalanların reabilitasiyası haqda qanun isə 1989-cu ildə qəbul edilib.

Çeçenistan və İnquşetiyada hələ də antiterror əməliyyatları davam edir. Demək olar ki, hər həftə hökumət qüvvələri ilə yerli silahlılar arasında toqquşmalar baş verir. Sonuncu torpaq anlaşmazlığı bu mənada risk daşıyır. Məsələnin digər görünməyən tərəfi isə ondan ibarətdir ki, İnquşetiyadan alınıb Çeçenistana verilən torpaq sahəsi neftli bölgədir və dolayısı ilə mübahisənin ortasında həm də neft, yəni böyük pullar var. Bu isə etirazları daha da qızışdırır. Bəlkə də İnquşetiyanın paytaxtında toplanan 10 minə yaxın insanın iştirak etdiyi aksiyanın əsas təşkilatçılarının gizli marağı burda yatır?

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a açıqlamasında Çeçnistan və İnquşetiya arasında sərhəd anlaşmazlığının SSRİ-dən sonra yarandığını bildirdi. Ancaq politoloq bu münaqişənin daha da böyüyəcəyinə inanmır. Onun fikrincə, Moskva indi toqquşmada maraqlı deyil: "Çeçenlərlə inquşlar arasında anlaşmazlıqlar var. SSRİ dağılandan bu yana aralarındakı sərhədi müəyyənləşdirə bilmirlər. Moskva bir müddət problemi konservləşdirmişdi. Moskva toqquşmaya imkan verməz. Görsə ki, vəziyyət ağırlaşır problemi yenə konservləşdirəcək".

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 210 (7099) 6 oktyabr 2018

**Mətbuatda yenə bir neçə bankın bağlanacağı ilə bağlı informasiyalar dolaşmaqdadır. Cari ilin sonuna kimi təxminən 4 bankın bağlanacağı iddia edilir. Səbəb isə onların öhdəliklərini yerinə yetirə bilməmələridir. Məlum olduğu kimi, son iki ildə bankların sağlamlaşdırılması prosesi çərçivəsində Maliyyə Bazarlarına Nəzarət Palatası 11 bankın lisenziyasını ləğv edib. Sağlamlaşdırılma prosesinin 2018-ci ilin sonuna qədər başa çatması və problemli bankların birləşdirilməsi və ya lisenziyasının ləğvi məsələsi gündəmdədir. Bəs görəsən, ümumilikdə bank sektorunun vəziyyəti cari ildə hansı istiqamətdə dəyişib. Problemli kreditlərin azalması, kreditləşmə prosesinin canlanması, depozit qoyuluşu, o cümlədən bankların kapitalının artması istiqamətində 2018-ci ilin ötən dövründə hansısa uğurlar əldə edilibmi?**

# "Son 9 ayda bankların aktivləri təxminən 39 faiz artıb"

## Samir Əliyev: "Banklar hələ də ehtiyatlı siyasət yürüdürlər, aktiv kreditləşmədə maraqlı deyillər"

Cari ildə bank sektorunda baş verənləri "Yeni Müsavat" üçün **iqtisadçı-ekspret Samir Əliyev** təhlil edib. O vurğulayıb ki, bank sektorunun vəziyyəti ağır və sabit olaraq qalmaqdadır: "Ancaq müəyyən bir canlanma da müşahidə olunur. Bunu bankların sağ qalmaq üçün müqaviməti və çabaları kimi qiymətləndirmək olar. Son bir ilin göstəricilərinə baxsaq, 2017-ci ilin sentyabr ayından bu yana bankların vəziyyətində pisləşmə qeydə alınıb. Lakin 2018-ci ildə banklar həmçinin müəyyən göstəriciləri yaxşılaşdırmağa nail olublar. Banklar 2015-ci ildən bəri ilk dəfə olaraq aktivlərini artırmağa müvəffəq olublar. Bu ilin 8 ayında aktivlərini 0,7 faiz artıra biliblər. Halbuki, ötən ilin 1 sentyabr tarixinə olan göstəricilərlə müqayisə etsək azalma hələ də davam edir, aktivlərdə 4,6 faiz azalma qeydə alınıb. Əsas məqamlardan biri də banklarda kreditləşmə məsələsidir. Məlum olduğu kimi, devalvasiyadan sonra kredit verilməsi kifayət qədər azalmışdı. Bunun obyektiv səbəbləri daha çox idi. Əsas səbəb inflyasiyanın artmasından dolayı aktivlərin zərərli aktivlərə çevrilməsi idi. 2017-ci ilin müvafiq dövründə əgər banklar aktivlərinin 41,4 faizini kreditlərə ayırırdılarsa, hazırda bu rəqəm 43,2 faizə qalxıb. Banklar əllərində olan hər 100 manatın 43 manat 20 qəpiyini kreditə yönəldirlər. Təəssüf ki, bu məbləğin 43 manat 20 qəpiyin 5 manat 90 qəpiyini mümkün zərərin ödənilməsi üçün məqsədli ehtiyat şəklində saxlayırlar, cəmi 37 manat 30 qəpiyini kredit şəklində yönəldirlər. Ancaq 2017-ci ilin müvafiq dövründə bu rəqəm 35 manat 85 qəpik idi. Ötən ilin sonunda bu rəqəm bir qədər artdı. Göründüyü kimi bankların kreditləşməyə yönəltdiyi vəsait az olaraq qalır. Devalvasiyadan əvvəl hər 100 manatın təxminən 70 manatı kreditə yönəldilirdi".




**İqtisadçı kreditləşmə prosesinə əngəl olan əsas məqamlardan biri kimi, bankların kreditlər üzrə mümkün zərərin ödənilməsi üçün məqsədli ehtiyatları artırmasını göstərdi**: "Buna görə də aktiv kreditləşmədə çətinliklər yaranmaqdadır. Hazırda 1 milyard 655 milyon manat pul məqsədli ehtiyat şəklində banklarda saxlanmalıdır, halbuki bu vəsait kreditləşməyə də yönəldilə bilərdi.

Buna baxmayaraq, bu ilin ilk 8 ayında müştərilərə verilən kreditlərin həcmində 5 faizə qədər artım var. Belə ki, 11 milyard 338 milyon manatdan 11 milyard 906 milyon manata qədər artıb. Bu isə qeyd etdiyimiz kimi, bankların aktivlərində kreditlərin həcminin artması deməkdir".

**Depozitlərə gəlincə, S.Əliyev bildirdi ki, istər ayrı-ayrı maliyyə institutlarının, istərsə də, fiziki və hüquqi şəxslərin depozitlərinə baxsaq, 2018-ci ilin ilk 8 ayında 0,8 faiz artım müşahidə edilib:** "2017-ci ilin müvafiq dövründə isə 8 faizə qədər azalma olmuşdu. Cari ilin 8 ayında əsas artım müəssisələrin və vətəndaşların depozitlərində olub-2,7 faiz... Maliyyə institutlarının depozitlərində isə 20 faizə qədər azalma olub. Dollar əmanətlərində faizlərin aşağı salınması və manatın sabit qalması səbəbindən manatla olan əmanətlərin daha çox saxlanılması prosesi davam edəcək. Cari ilin 8 ayına bankların kapitalının artırılması prosesi də baş verib. Son 9 ayda bankların aktivləri təxminən 39 faiz artıb. Hazırda bankların aktivləri 4 milyard manatdan çoxdur. Bu da bankların dayanıqlığını gücləndirən amillərdən biridir.

Təəssüf ki, kreditləşmənin artması fonunda bankların mənfəətində yaxşılaşma baş verməyib, əksinə azalma baş verib. Son 1 ildə xalis mənfəət 70 faizdən çox azalıb. Əgər 2017-ci ilin müvafiq dövründə xalis mənfəət 350 milyon manat idisə, 2018-ci ilin 8 ayında isə bu rəqəm 104 milyon manat olub. Azalmanın səbəbi də aktivlərlə bağlıdır. Aktivlər üzrə mümkün zərərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayırmalar var ki, problemli kreditlər artdıqca bu ayırmaların həcmi də artır. Buna görə də, bankların xalis mənfəətində azalma olub. Ötən ilin müvafiq dövründə mümkün zərərin ödənilməsi üzrə ehtiyatın həcmi 197 milyon manat idisə, hazırda bu rəqəm 316 milyon manata qədər artıb. Təxminən 61 faiz artım var".

**Ekspert onu da vurğuladı ki, banklar xərcləri optimallaşdırmaq məqsədilə cari ildə ümumilikdə 49 filialı ləğv ediblər:** "Bundan başqa, banklarda xərclərin optimallaşdırılması istiqamətində fəaliyyət davam edir. Onlar işçi heyətini artırmağa müvəffəq olsalar da, filialların sayının azalması baş verib. Banklarda şəbəkələşmə prosesi dayandırılıb. Son 1 ildə bank filiallarının sayı təxminən 9 faizə qədər azalıb, 560-dan 511-ə düşüb. Bu isə o deməkdir ki, 1 il ərzində 49 bank filialı bağlanıb və ya birləşdirilib. Paralel olaraq işçilərin sayı 4,7 artıb. Rəqəmlərdən belə nəticəyə gələ bilərik ki, banklar hələ də ehtiyatlı siyasət yürüdürlər, aktiv kreditləşmədə maraqlı deyillər. Sadəcə gəlir əldə etmək məqsədi ilə məcbur qalıb kreditləşməyə gedirlər. Əks halda gəlirlərin kəskin azalması bankların bağlanmasına gətirib çıxara bilər. Devalvasiyanın yaratdığı ağrılar hələ də bankların canından çıxmayıb. Problemli banklar qalmaqdadır. Bankların bağlanması prosesi baş verə bilər, təxminən 1-2 bank bağlana bilər. Lakin bununla bağlı qərarı müvafiq dövlət qurumları verir. Həmçinin neftin qiymətinin artması fonunda bankların gəlir mənbələrinin artması da müşahidə edilə bilər. Bu mənada qəti fikir söyləmək çətindir. Ancaq bilinən odur ki, devalvasiyadan təxminən 3 ilə yaxın vaxt keçməsinə baxmayaraq, bank sektoru hələ də onun təsirindən qurtula bilməyib".

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**



# Rayonlarda binaların dam örtükləri təzələnəcək

## Zərərli olduğu deyilən azbest şiferlər hələ də satışdadır

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda çoxmənzilli binaların dam örtüklərinin təmirinə 21 milyon 194 min 760 manat pul ayrılıb. Bu vəsaitlə ölkənin 27 şəhər və rayonunda 436 çoxmənzilli binanın dam örtüyü təmir olunacaq.**

Prezident sərəncamında nəzərdə tutulan vəsaitdən ən çox pay Gəncə şəhərinə düşəcək: burada 148 binanın dam örtüyünün təmirinə 6 milyon 197 min 63 manat sərf olunacaq. İkinci yerdə gələn Mingəçevir şəhərində 56 binanın dam örtüyü 3 milyon 985 min manata yenilənəcək. Sumqayıtda isə 59 binanın dam örtüyünə 2 milyon 992 min 57 manat xərclənəcək.

Xatırladaq ki, Azərbaycanda köhnə binaların əksəriyyətinin dam örtüyü azbest şiferlərdəndir. Bir müddət öncə Azərbaycanda azbest şiferlərin insan orqanizmi üçün zərərli olan maddələr buraxdığına dair geniş kampaniya aparılırdı. Hətta 2012-ci ildə Nazirlər Kabineti azbest örtüklü çoxmənzilli və fərdi yaşayış evlərinin siyahıya alınması ilə bağlı yerli icra hakimiyyətlərinə məktub göndərmişdi. Bir çox rayonlarda bu məktub əsasında siyahıyaalma da keçirilmişdi. Həmin vaxt **Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Radiasiya Problemləri İnstitutunun sabiq direktoru, "Milli Nüvə Tədqiqatları Mərkəzi " Qapalı Səhmdar Cəmiyyətinin sədri Adil Qəribov**un mətbuata verilən açıqlamada azbest şiferlərin günəş altında azot tərkibli kanserogen, zərərli maddələr buraxdığı qeyd olunur: "Beynəlxalq səviyyədə ekspertlərin müəyyən etdiyi belə bir tibbi nəticə var ki, bu maddələr xərçəng xəstəliklərini stimullaşdırır. Ona görə də dünya miqyasında inkişaf eləmiş ölkələrin çoxunda azbest şiferlərdən istifadəyə məhdudiyyət qoyulub. Azərbaycan da inkişaf etmiş ölkə sayılır. Ona görə də azbest şiferlərin yaratdığı problem gündəmə gəlib".

**Hətta Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov** da jurnalistlərə açıqlamasında vurğulamışdı ki, azbest şiferlərdən istifadəyə qadağa qoyulması təbiidir. Çünki dünyanın hər yerində belədir: "Bu şiferlər radiasiya təhlükəsi yaradır. Bu səbəbdən biz dünyada mövcud olan standartları qəbul edirik. Azərbaycanda bu şiferlərin istifadədən çıxarılması çox düzgün olardı. Amma şiferlər dəyişdirilərkən bunun dövlət və ya əhalinin öz hesabına edilməsi ilə bağlı mexanizmlər hələ hazırlanmayıb. Bununla bağlı mexanizmlər hazırlanacaq".

Maraqlıdır ki, azbest dam örtüklərinin həm kimyəvi, həm də radioloji analizini aparan Geologiya İnstitutu bu fikirləri bölüşməyib. **İnstitutun kimyəvi laboratoriyasının müdiri Nazim Sadıqov** mətbuata bildirib ki, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi onlara Azərbaycanda istehsal olunan azbest dam örtükləri ilə bağlı iki nümunə verib. Hər iki nümunənin tərkibinin vulkan külündən ibarət - yəni zərərsiz olduğu aydınlaşıb. İndiyə qədər azbest dam örtükləri ilə bağlı hər hansı radioaktiv şüalanma qeydə alınmayıb.

Azbest şirferlərin zərəri ilə bağlı xəbərdarlıqlara rəğmən, tikinti bazarında hələ də bu məhsulun satışı davam edir. Bazarda əsasən Rusiya istehsalı olan bu örtüklər satılır. Bəzi hesablamalara görə, Azərbaycanda olan azbest dam örtüklərinin hamısının əvəzlənməsi üçün 2 milyard manatdan yuxarı vəsait tələb olunur. Belə ki, rayon yerlərində hələ də bu şiferlərdən istifadə olunur - qiymətinə görə metal və kirəmitdən xeyli ucuz başa gəlir. Üstəlik, bir sıra satıcılar iddia edirlər ki, azbest şiferlər iqlim dəyişikliklərinə davamlılığı ilə digər materialları geridə qoyur.

Aydın məsələdir ki, fərdi evlərdə dam örtüklərinin təzələnməsi üçün dövlətin maliyyə ayırması mümkün deyil. Dövlət hesabına yalnız magistral yolların kənarlarında yerləşən evlərin dam örtükləri təzələnir. Magistral yollardan kənarda yerləşən ərazilərdə, xüsusilə də rayonlarda əhalini kütləvi şəkildə dam örtüklərini dəyişməyə məcbur etmək də mümkün deyil. Çünki bu, külli miqdarda xərc tələb edir. Digər tərəfdən, bir sıra mütəxəssislərin fikrincə, azbest şiferlərlə bağlı kampaniya ölkəyə digər materiallardan dam örtüyü idxal edən, eləcə də burada istehsal quran tərəflərin sifarişi əsasında başladılıb. Dövlət qurumlarının bu kampaniyaya qoşulması isə yüksək məbləğdə neft gəlirlərinin axını baş verən illərdə büdcədən əlavə vəsait ayrılmasına nail olmaq məqsədi daşıyıb.

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

Yeni Müsavat
N 210 (7099) 6 oktyabr 2018

# Cənubi Qafqazın iki ölkəsində seçki qovğası

## Qabil Hüseynli: “Seçki mübarizəsinin sərt şəkil alması bu ölkələrə kənar müdaxilə ehtimalını artırır”

**Güney Qafqazın üç ölkəsindən ikisində seçki qovğası yaşanır. Ermənistanda may ayında hakimiyyət dəyişikliyi baş versə də seçki mübarizəsi hələ də davam edir. Yeni parlament seçkiləri məsələsi isə hadisələri daha da drammatikləşdirib. Proseslər yenidən küçə və meydanlara keçib.**

Gürcüstanda isə 28 oktyabrda prezident seçkiləri olacaq. Seçki kampaniyası get-gedə gərgin məcraya istiqamətlənməkdədir. Tərəflər arasında gərginlik artır.

Cənubi Qafqazın seçki qovğaları getməyən, hazırda sakit siyasi həyat yaşayan ölkəsi Azərbaycandır. Bu, bizim üçün bir avantajdırmı?

**Politoloq Qabil Hüseynli** “Yeni Müsavat” qeyd etdi ki, Ermənistanda və Gürcüstanda hazırda həqiqətən də seçki qovğası gedir. Hər iki ölkədə seçki mübarizəsi cəmiyyəti müxtəlif cəbhələrə bölüb. Bu proses Ermənistanda daha drammatik və hətta faciəvi bir ssenari ilə cərəyan etməkdədir: “Hakimiyyətə mitinqlər və küçə yürüşləri ilə gələn Nikol Paşinyan az qala hakimiyyətini itirmək problemi ilə üzləşib. Parlamentdə baş verənlərdən sonra isə belə ölkədə ikihakimiyyətlilik kimi mənzərə yaranıb. Paşinyanın yeni parlament seçkiləri keçirmək və bütövlükdə hakimiyyət strukturlarını tamamilə legitimləşdirmək üçün əlində yetərli qanuni imkanlar yoxdur. Ona görə də Paşinyan sınaqdan çıxardığı taktikadan-küçə və meydanların gücündən istifadə edir, insanları meydanlara, küçələrə yığır, təzyiqlə müəyyən nəticələrə nail olmağa çalışır. Serj Sərkisyanla Robert Köçəryanın başçılıq etdiyi Qarabağ klanı isə ona dirəniş göstərir. Paşinyan onlara parlamenti xalqın mühasirəsinə almaqla cavab verir. Paşinyanın yeni seçkilərə getməsinə Qarabağ klanı və onlara bağlı olan qüvvələr imkan vermək istəmir. Paşinyan hakimiyyətə gələndən sonra özünü itirən, pərən-pərən düşən və müxalifət missiyasına sahiblənmiş keçmiş hakimiyyət komandasının üzvləri son günlər özlərini xeyli toparlaya və birləşməyə başlayıblar. Ona görə də qüvvələr nisbətində yaranmış böyük fərq bir qədər azalıb. Paşinyana qarşı yeni güc ortaya qoymağa başlayıblar. Prosesin bu gedişi hətta qanlı qarşıdurmaya gətirib çıxara bilər. Belə görünür ki, Ermənistanda seçkilər çox drammatik keçəcək. Seçki qovğası bu ölkəni çox böyük çaxnaşmalar və faciəvi vəziyyətlə üz-üzə qoya bilər. Prosesə ordunun da müdaxilə etməsi istisna edilmir”.

**Politoloq bildirdi ki, Gürcüstanda da seçki mübarizəsi kəskinləşməkdədir. Ancaq Ermənistandakı vəziyyətlə müqayisədə sakit sayıla bilər. Hakimiyyətdə olan Gürcü Arzusu Təşkilatı hiyləgər hərəkət edir. Belə ki, prezidentliyə öz namizədini irəli sürməyib, hələ ki, hansı namizədi müdafiə edəcəyini rəsmi açıqlamır. Bu isə cəmiyyəti və çoxsaylı namizədləri gərginlikdə saxlayır:** “Gürcüstanda seçkidə Qərblə Rusiyanın da mübarizəsi gedir və gedəcək. Gürcüstanda seçki ehtirasları kifayət qədər qızışmayıb. Mixail Saakaşvilinin adı ilə bağlı olan qüvvələrin seçkidə üstünlüyə malik olduğu barədə məlumatlar yayılır. Saakşvilinin tezliklə ölkəyə dönəcəyi xəbərləri yayılmaqdadır. Bir sözlə, qonşu Gürcüstanda seçki mübarizəsinin qızışması qarşıdadır”.

**Q.Hüseynli vurğuladı ki, seçki mübarizəsinin sərt şəkil alması, qovğaya çevrilməsi bu ölkələrə kənar müdaxilə ehtimalını artırır. Ermənistanda və Gürcüstanda bu baş verə bilər. Xüsusilə Rusiya müdaxilə edə bilər:** “Bu hal isə həmin respublikalar üçün heç də ürəkaçan durum vəd etmir. Məsələyə bu sarıdan və daxili sabitliyin vacibliyi sarıdan yanaşdıqda Azərbaycanda seçki qovğasının olmamasının üstünlüyünü, necə bir avantaj olduğunu görə bilərik. Azərbaycanda aprel ayında prezident seçkiləri çox sakit, gərginliklər yaşanmadan keçdi.



Seçkidə iştirak edən tərəflər qalib tərəfin qələbəsini tanıdılar, konstruktiv proses getdi. Sabit seçkilərin özü ilə sabitlik gətirməsi də məlumdur. Ölkənin inkişafı, insanların rahat yaşayışı, kənar müdaxilələr təhlükəsinin yaranmaması baxımından seçki qovğalarının olmaması mühüm əhəmiyyət daşıyır”.

**Q.Hüseynli onu da dedi ki, Azərbaycanda parlament seçkilərinin qabağa çəkiləcəyi barədə deyilənlər reallaşsa belə, Ermənistanda və Gürcüstandakı kimi seçki gərginliklərinin olması gözlənilmir.**

❑ **Etibar SEYİDAĞA,
“Yeni Müsavat”**

# Rusiya XİN-in sözçüsündən Qarabağla bağlı yeni açıqlama

## Mariya Zaxarova müsbət meylləri zədələməməyə çağırdı

**“Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində meydana gələn bütün müsbət meylləri alqışlayırıq. İndi onları ehtiyatsız bəyanatlarla zədələmədən daha da inkişaf etdirmək lazımdır”.**



Bunu keçirdiyi brifinq zamanı Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. O, Dağlıq Qarabağ probleminə dair son görüşlər və münaqişənin həllində Rusiyanın rolu barədə danışarkən deyib ki, Rusiya bu müsbət meyllərə mümkün qədər hər cür dəstək verəcək.

Mariya Zaxarovanın Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində müsbət meyllərdən danışarkən konkret hansı müsbət meyllərin olduğu barədə fikir bildirməyib.

Bəzi Azərbaycanlı siyasi analitiklər hesab edir ki, M.Zaxarova ümumi danışır, çünki əslində hansısa ciddi müsbət meyllər ortada görünmür. Bəzi təhlilçilər isə son bir-iki həftədə baş verənlərin müsbət meyllər olduğu qənaətindədirlər və düşünürlər ki, Rusiya XİN-in sözçüsü həmin baş verənləri nəzərdə tutur.

Məsələn, **politoloq Natiq Miri**nin fikrincə, ötən həftə Tacikstanın paytaxtı Düşənbədə MDB ölkələrinin başçılarının zirvə toplantısında Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında ayaqüstü də olsa danışığın baş tutması və bu zaman əldə edilən razılaşmalar, həmçinin Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü, bu görüşdə danışıqların davam etdirilməsi barədə razılığa gəlinməsi müsbət meyllər sayıla bilər. Böyük ehtimalla Mariya Zaxarova da məhz bu hadisələri nəzərdə tutub: “Bilirsiniz ki, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra keçən müddətdə Dağlıq Qarabağla bağlı Azərbaycan-Ermənistan danışıqları tamamilə dayanmışdı. Ermənistanın yeni baş naziri danışıqlara getməkdən boyun qaçırırdı. Paşinyan absurd şəkildə bəyan edirdi ki, danışıqlar aparmalı olan tərəf Ermənistan deyil, Dağlıq Qarabağdır. Azərbaycan isə təbii ki, bunu qəbul edə bilməz. Nəhayət, Nikol Paşinyan əvvəlki mövqeyindən geri çəkilməyə məcbur oldu və Dağlıq Qarabağ münaqişəsində məhz Ermənistanın tərəf olduğunu və Azərbaycanla danışıqları Ermənistanın aparmalı olduğunu qəbul etdi. Düşənbədə danışıq təşəbbüsü də ondan gəldi. Düşənbədəki danışıq Azərbaycan prezidenti ilə Ermənistanın yeni baş naziri arasında Qarabağ məsələsində ilk danışıq idi. Diqqət çəkən və müsbət meyl hesab edilməli məqam odur ki, ilk danışıq olmağına baxmayaraq ciddi sayılan bir razılaşma da əldə edildi. Düşənbədə Əliyev və Paşinyan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına, tərəflərin təmas xəttində və Ermənistan ilə Azərbaycan arasındakı sərhəddə insidentlərin qarşısının alınması üçün atəşkəs rejiminin möhkəmlənməsinə dair danışıqlar prosesinə sadiq olduqlarını bildiriblər. Tərəflər müvafiq strukturlar arasında operativ əlaqə qurulması üçün mexanizmlərin yaradılmasını qərara alıblar. Bu, Qarabağ münaqişəsi başlayandan indiyə qədər keçən müddətdə heç zaman müşahidə olunmayan yeni praktik hadisədir. Yeni olmaqla bərabər müsbət meyl kimi dəyərləndirilir. Bir həftə öncəyə qədər ”Qarabağ məsələsində tərəf Ermənistan yox, Dağlıq Qarabağdır" deyən Paşinyan indi Ermənistanın bir münaqişə tərəfi olduğunu qəbul etməklə yanaşı, insident ortaya çıxdığı zaman birbaşa əlaqələr yaratmaq üçün mexanizm yaradılmasına belə gedir. Bu, tərəflər arasında vasitəçi olmadan da müstəqil danışıqlar aparılmasına yol aça bilər. Deməli, bu, prosesdə müsbət meyldir. Sentyabrın 26-da Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin də görüşü prosesdə hərəkətliliyin başlaması kimi qəbul edilir".

**Politoloq Əhəd Məmmədli** isə hesab edir ki, hələlik Dağlıq Qarabağ məsələsinin həllində ciddi bir dönüş yoxdur. Ermənistanın dostu olduğunu dəfələrlə ortaya qoyan Mariya Zaxarovanın sözlərinə qətiyyən inanmaq olmaz: “Zaxarova ümumi danışıb. Çünki konkret faktlarla danışmaq üçün əsasları yoxdur. Zaxarovaların Qarabağ məsələsində əsas missiyası Qarabağ probleminin mümkün qədər indiki vəziyyətdə qalmasıdır. Sadəcə, Zaxarova Paşinyana demək istəyir ki, bəyanatlarında diqqətli olsun, Azərbaycanı müharibəyə sövq edəcək bəyanatlardan çəkinsin. Paşinyanın daxildə və Qarabağ məsələsində siyasəti get-gedə Moskvanın xoşuna gəlmir. Kreml istəyir ki, Qarabağ məsələsi indiki vəziyyətində qalsın. Qarabağ məsələsi həll olunmadıqca Rusiya rahatlıqla Azərbaycana və Ermənistana təsir rıçağını əldə saxlayacaq. Moskva heç vaxt Qarabağ probleminin real həllində maraqlı olmayıb”.

❑ **Etibar SEYİDAĞA,
“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 210 (7099) 6 oktyabr 2018



# Məhərrəmlikdə 60 günlük toy yasağının səbəbi

## İlahiyyatçılara görə, şənlik yasaq olmasa da, bu, bir əxlaq və qəlblə bağlı məsələdir...

**Artıq bir müddətdir ki, müsəlman aləmində, o cümlədən ölkəmizdə məhərrəmlik əyyamı yaşanır. Məlum olduğu kimi, xüsusən də şiə məzhəbinin nümayəndələri Məhərrəm və Səfər ayında, yəni 60 gün ərzində matəm saxlayır, toy və mərasim keçirməkdən imtina edirlər. Bəs Məhərrəm ayı niyə 60 gün çəkir? Bu sualın cavabı bəziləri üçün məlum deyil.**

Xatırladaq ki, bu ay Peyğəmbərin (s) buyurduğu kimi, müharibələrin qadağan olunduğu aylardan biridir. Lakin Məhərrəm ayının 10-cu günü İslam tarixinə Aşura günü, İmam-Hüseyn (ə) və tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi daxil olub. Aşuranın qırxıncı günündən sonra 10 gün də Səfər ayı üçün matəm günü hesab olunmasının da öz mənası var. Belə ki, Məhərrəm ayında müharibə etməkdən çəkinən ərəb tayfaları Səfər ayından başlayaraq öz münaqişələrinə davam edib, müharibələr üçün hazırlıqlara başlayıblar. Bəzən bu ayı nəhs ayı kimi də qəbul edirlər. Lakin dini ekspertlər qeyd edir ki, bu inancın dini əsası yoxdur. Beləliklə Məhərrəmlik ayı 60 gün çəkmiş olur.

*Bəs Məhərrəmlikdə toy etmək olarmı? Bununla bağlı yeni fətvaya və yaxud qadağa ehtiyac varmı?*

Qeyd edək ki, bu mövzu ətrafında hər zaman mübahisəli fikirlər səsləndirilib. Bir çox müsəlman ölkələrində, xüsusən də sünni məzhəbində olanlar məhərrəmlik yasaqlarına ciddi şəkildə əməl etmir. Azərbaycanda da sünni məzhəbinə mənsub insanların yaşadığı bölgələrdə bəzən böyük və kiçik toy məclislərinin, nişan və digər bu kimi şənliklərin keçirildiyinin şahidi oluruq. Məsələn, deyilənə görə, Qazaxın yalnız 2-3 kəndində məhərrəmlik adət-ənənələrinə əməl olunur. Burada məhərrəmlik dövründə də digər aylarda olduğu kimi, toy-nişan mərasimləri keçirilir. O cümlədən Zaqatala-Balakən, Şəki, Qusar bölgələrində məhərrəmlik yasaqlarına o qədər də əməl olunmadığı bildirilir. Lakin elə bu bölgələrdə yaşayanlar da əksər hallarda məhərrəmlik yasaqlarında əməl etməsələr də, böyük toy məclisi keçirməkdən çəkinir, bu ayda toy edilərsə, uğursuzluq olacağını düşünürlər.

Beləliklə, Məhərrəm ayında toy, şənlik məclislərinin keçirilməsi ilə bağlı müzakirələr yenə də aktualdır. **Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sələhiyyətli nümayəndəsi Şahin Həsənli** mövzu ilə bağlı bundan əvvəl müsahibələrinin birində qeyd etmişdi ki, Məhərrəm ayında toy, şadlıq mərasimlərinin keçirilməsi qadağa və əmr çərçivəsindən kənarda olan məsələdir: "Bu, qəlblə bağlıdır. Bu ay İmam Hüseyn əleyhissəlamın şəhid olduğu aydır. Məsumlar tərəfindən bu ayda bizə əzadarlıq və matəm əhval-ruhiyyəsində olmaq tövsiyə olunur. Şəriət nöqteyi-nəzərindən toy mərasimlərinin keçirilməsi qadağan olunmayıb. Amma bilirik ki, yaxın adamını itirən bir şəxs bayram etməz. Bu əzadarlığı xalqımız əsrlər boyu yaşadır və adətdir ki, Məhərrəm, Səfər aylarında toy edilməyib. Azərbaycanda məzhəbindən asılı olmayaraq hər kəs buna əməl edir. Ona görə də hesab edirəm ki, bu məsələ ilə bağlı əmr və qadağaların olması zəruri deyil.

İmam Hüseynin və Kərbəla şəhidlərinin ruhuna hörmət əlaməti olaraq vacibdir ki, bu iki ayda toy və şadlıq mərasimləri keçirilməsin".

**İlahiyyatçı Emil Rahiloğlu** da mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, şəriət nöqteyi-nəzərindən Məhərrəm ayında toy etmək, kəbin kəsdirmək qadağan deyil: "Onsuz da bizdə keçirilən toylar dinə əsasən qadağandır. Yəni İslam dinində spirtli içki qəbul etmək, məhrəmlərin bir-biri ilə oynaması olmaz. Bir daha qeyd edirəm ki, Məhərrəm ayında kəbin kəsdirmək şəriət nöqteyi-nəzərindən qadağan deyil. Lakin sual əsasən şənliklərlə bağlıdır. Yəni bu ayda şənlik etmək olar, ya olmaz? Əlbəttə, burada söhbət İslam dini fəlsəfəsində olan şənlikdən söhbət gedirsə, bu da qadağan deyil. Əxlaq nöqteyi-nəzərindən isə deyə bilərik ki, yaxınlarımız, qonşularımız belə dünyasını dəyişdikdə, onun ehtiramına bir müddət həssaslıq edir, toy məclisi keçirmir. Məlum olduğu kimi, bəşəriyyətin xilaskarı olan peyğəmbərin yaxınları Kərbəla düzündə vəhşicəsinə qətlə yetirilib. Beləliklə, biz peyğəmbərin ailəsinə əzadarlıq edirik və necə ki, öz yaxınlarımız üçün 1-2 ay matəm saxladığımız kimi onlar üçün də yas saxlayırıq, keçmişdə olduğu kimi, indi də ehtiram saxlayır, toy məclisi keçirmirik. Yəni bu, sadəcə bir vicdan məsələsidir. Bəzi hədislərdə qeyd olunur ki, Məhərrəm ayı gələndə imamlarımız 40 gün qara geyinib yas saxlayırlarmış. Bu gün hər kəs bu ənənəni davam etməyə çalışır. Əgər kim əməl etmirsə, onu tənqid etməyə ehtiyac yoxdur".

**İlahiyyatçı qeyd etdi ki, İran, İraqda məhərrəmlik əsasən 40 gün çəkir:** "Lakin sonrakı günlərdə, yəni 10 gün Səfər ayında da çox mühüm hadisələr baş verib. Səfər ayının 1-i Siffeyin döyüşünün başlanması, 5-i Həzrət Rüqəyyənin şəhadəti, 9-u Əmmar Yasirin Siffeyində şəhid olması, 20-si İmam Hüseynin şəhadətinin "Ərbəin" (40 mərasimi) günüdür. Səfər ayının 28-də isə Həzrət Məhəmməd peyğəmbər (s.ə.s) və İmam Həsənin (ə) şəhadət günüdür. Bu səbəbdən də adətən Səfər ayının "Ərbəin"dən sonrakı 10 günü də matəm günləri olaraq qəbul olunur".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Bayıldakı əhali evinə qayıtmaq istəyir

## Sakinlər bildirirlər ki, 1 ay sonra onların taleyi ilə bağlı yekun qərar verilməsə, etiraz edəcəklər

**Oktyabrın 4-də Bayıl yamacında sürüşmə zonasında yaşayan bir qrup sakin etiraz aksiyası keçirib. Sakinlər bildirirlər ki, artıq havalar soyusa da onların vəziyyətinin necə olacağı məlum deyil. Onlar "Yeni Müsavat"a bildiriblər ki, müvafiq qurumlar hələ də köçürüləcəkləri ilə əlaqədar konkret söz demir.**



Məlumat üçün qeyd edək ki, yanvarın 24-də Bayıl yamacında baş vermiş sürüşmə nəticəsində ərazidə olan 98 ev təhlükəli vəziyyətə düşüb, sakinlər ərazidən çıxarılaraq sığınacaqlara yerləşdiriliblər. Hadisədən bir neçə gün sonra isə ərazidə 4 ev tam uçub, 2 ev isə yararsız vəziyyətə düşüb. Sürüşmə zamanı tam dağılmış fərdi yaşayış evlərinin sahiblərinə veriləcək birdəfəlik kompensasiyanın məbləği müəyyən edilib və Nazirlər Kabinetinin qərarı ilə həmin evin sakinlərinə ödənilib. Digər ailələr isə 11 aylıq kirayə mənzillərə köçürülüblər. Sakinlər bildirirlər ki, artıq 11 ay başa çatmaq üzrədir. Ona görə də müvafiq qurumlardan konkret qərar gözləyirlər.

Sakin Zahid Aslanov "Yeni Müsavat"a söyləyib ki, onlar 11 ayın başa çatmasını gözləyirlər: "Oktyabrın 4-də 10-dan çox sakin məhəlləmizdə toplaşıb vəziyyətlə bağlı müzakirə etdik. Qərara gəldik ki, 1 ay da gözləyək. Əgər konkret qərar verilməsə, aksiya edəcəyik. Camaat bilmir ki, sabahkı günü necə olacaq. Artıq havalar soyuyub və vəziyyətmiz də getdikcə çətinləşir. Sürüşmənin olmadığını söyləsələr də mənim evimdə çatlar dərinləşib. Əvvəl divardakı çat 1-2 millimetr idisə, indi 3-5 santimetrdir. Ona görə də xahiş edirik ki, müvafiq qurumlar bizim səsimizi eşidib, hərəkətə keçsinlər".

**Sakinlərlə söhbətimiz zamanı onu da öyrəndik ki, ərazidə bəzi evlərin kommunal xətləri bərpa olunub. Bir hissəsi isə qazsız qalıb. Eyni zamanda sakinlərin bir qismi kirayə mənzildə yaşamaqdan imtina edib. Öz evlərinə dönüblər. Sakinlərin sözlərinə görə, evlərinə qayıdanların hamısının kirayə pulu kəsilib. Onlar bildirirlər ki, kirayə pulunu kəsirlərsə, mənzillərinin kommunal xətlərini bərpa etsinlər ki, evlərində yaşaya bilsinlər.**

Onu da qeyd edək ki, Eldar Əzizov Bakı Şəhər İcra Hakimiyyətinin müavin vəzifəsinə təyin olunduqdan sonra Səbayel Rayon İcra Hakimiyyəti başçısız qalıb. Sakinlər bildirirlər ki, icra hakimiyyətində sözlərini deməyə adam tapmırlar.

**Sakinlər bildirirlər ki, sürüşmə sahəsində 400-500 metr məsafədə olan evlərin də kommunal xətləri bərpa olunmur. Onların əsas etirazları da bununla bağlıdır.**

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**




# 2018-ci il üzrə Nobel sülh mükafatının qalibləri məlum olub

**Nobel Komitəsi 2018-ci il üzrə Nobel sülh mükafatının qaliblərinin adını açıqlayıb.**

"Report" TASS-a istinadən xəbər verir ki, konqolu həkim Deni Mukvege və İraqın yezidi kürd əsilli hüquq müdafiəçisi Nadia Murad Nobel sülh mükafatına layiq görülüblər.

Onlar müharibə və hərbi münaqişələr zamanı cinsi zorakılığa qarşı apardıqları mübarizəyə görə mükafatlandırılıblar.

Qeyd edək ki, bu il mükafata Almaniya kansleri Angela Merkel, ABŞ Prezidenti Donald Tramp, Şimali Koreya lideri Kim Çen In, hüquq müdafiəçisi Amal Kluni namizəd göstərilmişdi.

# YENİ MÜSAVAT

Son səhifə

N 210 (7099) 6 oktyabr 2018




## Ac siçovullar 200 min avroluq kitabları yedi

**Ştutqart Universitetində ac siçovullar səkkiz ədəd nadir kitabı yeyiblər. Bu barədə lenta.ru nəşri xəbər verib. Kitabxana təmsilçisi danışıb ki, ilin əvvəlindən etibarən gəmiriçilər minə yaxın kitabı xarab ediblər. Onların sırasında ötən əsrdə nəşr olunanlar da var. Eyni zamanda 1970-1980-ci illərdə nəşr olunan elmi kitablar, iqtisadiyyatla, sosiologiya və hüquqla bağlı nadir nüsxələr məhv olub. Dəyən maddi ziyanın ümumi məbləği 200 min avro olub. "Bəzi kitablar isə o qədər siçovulların tullanrtıları ilə doludur ki, onları yumaq belə mümkün deyil" - Bunu da yerli nəşr olan "Stuttgarter Zeitung"də yazıblar.**

Kitabxana əməkdaşları əmindilər ki, kitabxanada bu qədər çox gəmiricinin peyda olması qonşuluqdakı parkla bağlıdır. Həmin parkı əhali çox zibilləyib. Bağın təmizliyi həftədə bir dəfə həyata keçirilir, digər günlər isə yerdə zir-zibil qalaqları olur.

Universitet kitabxanada irimiqyaslı təmizlik işləri aparmağı və siçovullar üçün mümkün olan bütün yolları bağlamağı planlaşdırır.

İyunda Hindistandakı bankomatlardan birində pulların bir hissəsi siçovullar tərəfindən yeyilmişdi. Aparat bir neçə həftə çalışmırdı. Araşdırma çərçivəsində məlum oldu ki, siçanlar ümumi məbləği 1 milyon 238 min rupi olan pul əsginaslarını yeyiblər.

## Hamilə olduğu üçün işdən çıxarıldı

**ABŞ sakini onu hamilə olduğu üçün işdən çıxaran kampaniyanı məhkəməyə verib. Bu barədə "Mirror" nəşri xəbər verib. Karolina Ruiz adlı qadın "Avon" firmasında dörd həftə boyunca rəhbər vəzifədə çalışıb. Günlərin bir günündə o, ağır qanaxmaya görə xəstəxanaya getmək zorunda qalıb. Orada qadına uşağı itirmə təhlükəsinin böyük olması barədə xəbərdarlıq ediblər. Eyni zamanda məsləhət görüblər ki, bir müddət evdə, yataq rejimində qalsın.**



Amerikalı qadın işini itirmək təhlükəsi altında istirahətdən imtina edib və işə qayıdıb. Növbəti gün onun rəhbərliyindəki şəxslər və kadr şöbəsinin rəhbərliyi ona "yaradıcılıqdakı problemlərlə" bağlı iradlar bildiriblər. O, öz sağlamlıq durumunu təsvir edib və qeyd edib ki, bir həftə boyunca evdən çalışa bilər.

Onun bu xahişinə rəhbərlik belə cavab verib ki, "sənin sağlamlıq durumunun bizə heç bir aidiyyəti yoxdur". Qadın eyni zamanda evdən çalışmaqla bağlı ərizəsinə rədd cavabı verilməsi ilə bağlı bir məktub da alıb. Ruiz həftə sonunu prezentasiya üçün hazırlanmaqla keçirib. Amma ofisə gələndə aydın olub ki, onu işdən çıxarıblar. Səbəb olaraqsa, "yaradıcılıqdakı çatışmazlıqları" göstəriblər.

**Qadının vəkili isə əmindir ki, işdən çıxarılmaya səbəb onun müştərisinin öz hamiləliyi barədə məlumat verməsi olub. Bir çox iri şirkətlərdə hamilə, çoxuşaqlı qadınların işə götürülməsi o qədər də arzuedilən deyil.**

## Keçmiş sevgililərinə sorğu göndərdi

**Keti adlı Amerika sakini keçmiş sevgililərinə sorğu göndərməsi ilə şöhrət qazanıb. Bu sorğu-sənədi onun rəfiqəsi Ebbi Tvitterdə paylaşıb.**

Ebbinin dediyinə görə, bu sorğunu Ketinin nə zamansa sevgilisi olmuş hər bir gənc alıb. Sorğu sənədində qız keçmiş sevgilisindən "onda nəyin xoşuna gəlmədiyini" soruşub. Bundan başqa, qız bilmək istəyib ki, onların münasibəti nə zaman dalana dirənib. "Kettini hansısa dostuna sevgili olaraq tövsiyə edərdinizmi. Əgər cavabın "hə"dirsə, o zaman dostunuzun nömrəsini burda yazın"- sorğuda suallardan biri də belə idi. Keçmiş sevgilərdən həmçinin ikinci şans istəyib-istəmədikləri də soruşulub.

Ebbinin statusu Tvitterdə virus kimi populyarlıq qazanıb və yayılıb. Onun bu sorğu sənədini 3 minə yaxın insan paylaşıb. Ümumən tveeti isə 20 min nəfər bəyənib. Şərhlərdə qeyd edilib ki, qız dahiyanə bir iş görüb. "Nəhayət ki, münasibətlər hər zaman ehtiyac duyulan struktura və administrativ bürokratiyaya qovuşdu" - istifadəçilərdən biri belə yazaraq gənc qızı tərifləyib. "Mən də onun kimi etməyə məcburam" - bunu da başqa mikrobloqqer yazıb.

## Qoroskop




**QOÇ** - Riskli pul sövdələşmələrinə girişməsəniz, günün ümumi ovqatı sizi məmnun edəcək. Tərəddüd etdiyiniz məqamlarda təcrübəli insanların məsləhətlərinə baş vurun. Günortadan sonra səfərə çıxmaq olar.

**BUĞA** - Kosmik fon müvəffəqiyyət mərhələsinə qədəm qoymanızdan xəbər verir. Lakin boşluqlarınız da var. Bu baxımdan ilk növbədə ailə-sevgi məsələlərinə diqqət ayırmalı, qazancınızı boş məsrəflərə xərcləməməlisiniz.

**ƏKİZLƏR** - Qarşınızda sizə uğur gətirəcək bir təqvim durur. Bunun üçün öncə özünüzü mübahisəli situasiyalardan, risk və xəstəliklərdən qorumalı, həmçinin uzaq səfərləri də təxirə salmalısınız.

**XƏRÇƏNG** - Ulduzlar səhhətinizə fikir verməyi məsləhət görür. Uzaq səfərləri isə bacardığınız qədər təxirə salın. İndi sizə mübahisələrə girişmək, böyük və müəmmalı məsələlər barədə müzakirələr aparmaq yolverilməzdir.

**ŞİR** - Gün ərzində üzərinizə düşən başlıca vəzifə mövqelərinizi qətiləşdirmək, tərəfdaşlarınızı sınamaq və yeni layihələri reallaşdırmaq üçün sövdələşmələr aparmaqdır. Qeyri-ənənəvilikdən qaçın.

**QIZ** - Ulduzlara inansaq, indiki əziyyətləriniz vaxtında qarşınıza çıxan şanslardan yararlanmamağınızdan irəli gəlir. Amma bu "qara zolaq" nahardan sonra zəifləməyə başlayacaq, deməli, siz də güclənəcəksiniz.

**TƏRƏZİ** - Hansısa xoşagəlməzliyin baş verəcəyinə inanmayın. Üstəlik, bir az səmimi olun, dünyamızı, insanları daha çox sevin. Təxminən saat 16-dan sonra bir neçə önəmli hadisə ilə rastlaşacaqsınız. Yalan danışmayın.

**ƏQRƏB** - Yaxşısı budur, adi işlərin həlli ilə məşğul olasınız. Onsuz da dünyanı nə tam şəkildə dərk edən, nə də ona bütünlüklə sülh gətirən olub. İmkan verməyin ki, həmkarlarınızla aranıza girənlər olsun.

**OXATAN** - Ümumi atmosferin müsbət axarına riayət edib yalnız savab işlər görməyə çalışın. Yaşca özünüzdən böyük insanların məsləhətinə qulaq asın, kiçiklərə isə qayğı göstərin. Yeni təkliflərə razılıq verin.

**OĞLAQ** - Dünənə baxıb bu günə şükr etməyi bacarın, mövcud durumunuzdan şikayətlənməyin. Çünki sizdə bütün xeyirlər düşüncənizin təhərinizdən asılıdır. Yüksək çinli məmurlarla əlaqələri dərinləşdirin.

**SUTÖKƏN** - Özünüzü tənha hiss etməklə sizə nicat olmayacaq. Yaxşısı budur, üzərinizə düşən öhdəlikləri dəqiqləşdirib, onun həlli yollarını tapasınız. Sevginizdə olan boşluqları doldurun ki, qəlbiniz rahat olsun.

**BALIQLAR** - Ailə-sevgi münasibətlərində, eləcə də kollektivlə davranışda mülayimlik göstərsəniz, işləriniz qaydasına düşəcək. Perspektivli sövdələşmələr, o cümlədən şəxsi büdcədə artım yolunuzu gözləyir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Xəyanət iztirabı üçün kompensasiya tələb edir



**Tula vilayətinin sakini ona xəyanət edən həyat yoldaşından məhkəməyə şikayət edib və ondan vurduğu mənəvi ziyana görə 500 min rubl məbləğində kompensasiya tələb edib. Adı açıqlanmayan qadın Suvorov rayon məhkəməsinə müraciət edərkən bildirib ki, əri ona uzunmüddətli nikahdan kənar münasibəti barədə etiraf edib, üstəlik, bu xəyanətdən uşağı olduğunu da deyib. Bunu deyəndən sonra isə qadından boşanıb.**

İddiaçı isə bildirib ki, xəyanət xəbərini öyrənəndən sonra fiziki və mənəvi iztirablar yaşayıb. Bu olaydan sonra onda ürək ağrısı, başgicəllənməsi, yuxusuzluq yaranıb. Eyni zamanda qadın təlaş və qorxu hisslərindən də uzaqlaşa bilmir. Sübut qismində qadın əri atandan sonrakı üç ay müddətində müalicə aldığı xəstəxanalardan əldə etdiyi arayışları göstərib. İşə isə Suvorov rayon Məhkəməsində çalışan yeganə qadın hakim baxacaq.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100